Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

1-3 İYUN 2019-cu il

№ 97 (3995)

Qiyməti 50 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİLƏRİN TƏXRİBATI VƏ HƏRBÇİMİZİ ÖLDÜRMƏSİ MÜNAQİŞƏNİN GÜC YOLU İLƏ HƏLL EHTİMALINI ARTIRDI

■ səh. 9 ■

İslahatlar və beynəlxalq tədbirlərin uğurlu təşkilində İlham Əliyev faktoru...

■ səh. 4 ■

Həmsədrlər Prezident İlham Əliyevlə görüşdükdən sonra "Qarabağ yolunda" konkret addımlardan danışdılar...

■ səh. 4 ■

Ermənistan - qondarma "DQR" konfliktini necə qızışdırmalı...

■ səh. 7 ■

Mxitaryan İngiltərə məhkəməsində müqaviləni pozduğuna görə cərimələnə bilər

■ səh. 10 ■

ABŞ dövlət borcunun fantastik 22 trilyona çatması manat üçün yeni şərait yaradır

■ səh. 6 ■

Bölgələrimizdə "vəkil böhranı" - elə rayonlar var ki, cəmi 1 vəkil...

■ səh. 12 ■

Azərbaycanda Həccə meyl azalıb, kvota 40 yer azaldıldı, 1400 yer yenə dolmayıb...

■ səh. 13 ■

83 yaşlı şəhid atası "Müharibə əlilləri üçün müalicə pansionatı"ndan nələr danışır?

■ səh. 15 ■



## Polşa Prezidenti İlham Əliyevə «münaqişənin həllində hər zaman bizim dəstəyimizə arxalana bilərsiniz» vədi verdi...

■ səh. 3 ■



Rusiya müdafiə nazirinin müşavirindən Azərbaycanın «Qərb yolu» barədə maraqlı şərh...

■ səh. 5 ■




Azərbaycana mal gətirən iş adamlarının «karqo problemi»...

■ səh. 11 ■

Azərbaycan 5 milyardlıq «ölü layihəni» canlandırır

■ səh. 8 ■

■ səh. 5 ■

Həmsədrlər gələn gün Azərbaycan hərbçisinin öldürülməsində Ermənistan - uydurma "DQR" ziddiyyətləri faktoru...



■ səh. 7 ■

Ermənidən başqa kimsənin yaşamadığı Ermənistanın rəhbəri Azərbaycanı rasizmdə suçlayır - böhtançı bəyanatın cavabı...



■ səh. 11 ■

Təhsil Nazirliyi xaricdən gətirilən diplomların arasında saxtalıqları yenidən gündəmə gətirdi...



■ səh. 12 ■

Avroliqanın futbol finalında Bakıya 60 mindən çox xarici gəlib...



■ səh. 14 ■

Beynəlxalq təşkilatın Azərbaycanda uşaq məsələləri barədə tam qeyri-real hesabatı...



## Birinci vitse-prezidentin Aparatından vəkillərlə bağlı mülahizə...

**Azərbaycanda vəkillərin sayı elə də çox deyil. "Trend"in məlumatına görə, bunu Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" konfransında deyib.**



Onun sözlərinə görə, son ilyarım ərzində vəkillərin sayı 800 nəfərdən 1500-ə qədər artıb: "Bu çox yaxşı haldır. Lakin qanunvericiliyə qoyulmuş, xüsusilə də nümayəndəlik institutu ilə bağlı məhdudiyyətlər bəzi kateqoriyalı şəxslərin, xüsusilə Bakıdan kənarda yerləşən şəxslərin məhkəməyə müraciət etmək imkanlarına maneələr yaradıb. Bizdə olan məlumata görə, elə rayon var ki, orada 1 vəkil fəaliyyət göstərir".

G.Kərimov qeyd edib ki, vəkilliyə qəbul qaydalarının və ixtisas suallarının yüngülləşdirilməsinə ehtiyac var.

## Azərbaycanda məhkəmə-hüquq islahatlarına "vəkil baxışı" keçirildi

**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar çərçivəsində vəkillik institutunun inkişafına şərait yaradacaq yeni yanaşmalar tətbiq olunub.**

"Trend"in məlumatına görə, bunu "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda keçirilən konfransda Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Hüquqi xidmətlərin göstərilməsi məsələləri sektorunun müdiri Vüsal İsayev deyib. O bildirib ki, ASAN Xidmətlə Vəkillər Kollegiyasının imzaladığı memorandum əhaliyə daha keyfiyyətli hüquqi yardımın göstərilməsinə şərait yaradır: "Bu həm paytaxt, həm də regionlarda hüquqi yardımın əhatəsinin genişləndirilməsinə səbəb olacaq. Cənab Prezidentin 3 aprel 2019-cu il tarixli sərəncamı ilə cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı növbəti tapşırıqlar verilib və bu istiqamətdə layihələr hazırlanacaq. Bu, ilk belə tapşırıq deyil, bütövlükdə həyata keçirilən humanist siyasətin növbəti təzahürüdür. 2017-ci ilin fevralında cənab Prezidentin humanistləşmə ilə bağlı sərəncamı olmuşdu. Həmin vaxt cinayət qanunvericiliyində 300-ədək dəyişiklik edildi. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəza növləri tətbiq olundu. Bütövlükdə kompleks şəkildə dəyərləndirilmə aparıldı və islahatlar həyata keçirildi. Nəticə isə bu gün göz qabağındadır. Belə ki, həmin islahatlar 14 minə yaxın şəxsə tətbiq olunmuşdu. 9 minə yaxın şəxs istintaq və məhkəmə dövründə məsuliyyətdən azad olunmuşdu. 1800 şəxs cəzadan azad olunmuşdu ki, onlardan 800 nəfəri azadlıqdan məhrumetmə cəzasından azad edilmişdi. Hesab edirəm ki, bu islahatlar davam etdiriləcək". Sektor müdiri qeyd edib ki, cəza siyasətinə yeni baxış var və bunun nəticəsi olaraq Azərbaycanda azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin sayı ən aşağı səviyyədədir. Onun sözlərinə görə, mülki məhkəmə icraatı ilə bağlı fərmanda bir sıra tapşırıq və tövsiyələr mövcuddur: "Bura həm ixtisaslaşmış vəkillərin hazırlanması, həm də mülki-prosessual qanunvericiliyin yenidən işlənməsi daxildir. Mülki-prosessual məcəllə 20 il bundan öncə qəbul olunub və onun təkmilləşməsinə ehtiyac var. Gündəlik fəaliyyətində Məcəllədən istifadə edənlər orada müəyyən boşluqlar və təkmilləşməyə ehtiyacın olduğu sahələrlə rastlaşırlar. Vəkillər də bununla bağlı təkliflər irəli sürərsə, çox yaxşı olar və biz bunu gözləyirik". V.İsayev qeyd edib ki, fərmanda məhkəmədənkənar üsullara, operativ metodlara böyük önəm verilib: "Bu sahədə son illər böyük addımlar atılıb. 2016-cı ildə Apellyasiya Şuralarının yaradılmasını misal göstərə bilərəm. 2018-ci ildə Apellyasiya Şuralarına edilən müraciətlər nəticəsində həm Şuranın fəaliyyəti təkmilləşib, həm də müraciətlərə baxılmaların nəticələri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu da mühüm göstəricidir".

# Dünyaya demokratiya dərsi keçən "Amnesty International" dağılır - intiharlar, istefalar...

**"Amnesty International" təşkilatının idarə heyətinin 7 üzvündən 5-i təşkilatı tərk edəcək. "Trend"in məlumatına görə, həmin şəxslər oktyabr ayınadək vəzifələrini tərk etməlidir.**

Qeyd olunur ki, bir müddət əvvəl "Amnesty International"da əmək şəraiti barədə məruzə hazırlanması qərara alınıb. Buna səbəb təşkilatın iki əməkdaşının intihar etməsi, bir çox işçilərin isə rəhbərliklə münasibətlərdən şikayəti olub.




Ötən il təşkilatın Paris ofisində işləyən Qaetan Muto intihar edib və yazdığı məktubda bunun səbəbi kimi stres və həddən artıq yorğun olmasını göstərib.

Bir neçə həftə sonra isə Cenevrə ofisinin əməkdaşı Rozalind MakQreqor intihar edib. Onun yaxınları qadının işlə əlaqədar psixoloji gərginliyə məruz qaldığını bildirib.

Hesabatda o da qeyd olunub ki, işçilər menecerlərin dəfələrlə onları alçaltdığını bildirib. Təşkilat daxilində irqi və cinsi zəmində ayrıseçkiliyin də olduğu deyilib.

# ABŞ-ın daha bir şəhərində Cümhuriyyət bayramımız qeyd edildi

**ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərində mayın 28-də tarixi Kolton hökumət binasında Azərbaycanın Respublika Gününə həsr olunmuş geniş tədbir keçirilib.**

Bu barədə "Bakı Xəbər"ə Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan xəbər verilib. Xəbərdə deyilir ki, XIX əsrdə tikilmiş bu binada 1849-cu ildə Kaliforniyanın ilk konstitusiyası qəbul olunub.

Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğu, Monterey Şəhər Şurası və Monterey-Lənkəran Dostluq Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə AR Milli Məclisinin üzvü Hadı Rəcəbli, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısının birinci müavini Möhübbət Babayev, Monterey və Salinas Şəhər Şuralarının üzvləri, azərbaycanlılar, tanınmış siyasi, elm və mədəniyyət xadimləri və jurnalistlər iştirak edib.

Qeyd edək ki, 2011-ci ildən Monterey şəhəri ilə Lənkəran şəhəri qardaşlaşıb.

Tədbir Azərbaycan və ABŞ-ın dövlət himnlərinin ifası ilə başlayıb.

Monterey-Lənkəran Dostluq Assosiasiyasının sədri Nensi Selfricin aparıcılığı ilə



keçən tədbiri giriş sözü ilə açan Monterey şəhərinin meri Klayd Roberson (Clyde Roberson) hər kəsi salamlayaraq, Montereyin bu cür gözəl bayram mərasiminə ev sahibliyi etməsindən məmnunluq duyduğunu bildirib. O, Montereylə Lənkəran arasında "qardaşlaşmış şəhərlər" münasibətləri barədə danışaraq, qarşıdakı illərdə bu münasibətlərin daha da sıxlaşacağına ümid etdiyini diqqətə çatdırıb. K.Roberson daha sonra Monterey şəhəri adından Azərbaycanın Respublika Günü ilə bağlı təbrik bəyannaməsini təqdim edib. Bəyannaməyə əsasən, 28 may tarixi Montereydə "Azərbaycan Milli Günü" elan edilib. Bundan başqa, bayram münasibətilə Kaliforniya Ştat senatoru Bill Monninqin (Bill Monning) imzaladığı təbrik bəyannaməsi və Salinas şəhəri tərəfindən qəbul edilmiş müvafiq bəyannamə də təqdim olunub.

Sonra çıxış edən millət vəkili H.Rəcəbli ölkəmizin müstəqillik tarixi haqda ətraflı məlumat verərək, 101 il əvvəl Azərbaycan xalqının müsəlman dünyasının ilk dünyəvi dövləti olan Azərbaycan Demokratik Respublikasını (ADR) qurduğunu və bu respublikanın qadınlara səsvermə hüququ verən ilk müsəlman ölkəsi kimi tarixə düşdüyünü qeyd edib. O, həmçinin, Azərbaycanın müasir iqtisadi və siyasi inkişafı haqda danışaraq, ölkəmizin beynəlxalq nüfuzunun günügündən artdığını diqqətə çatdırıb.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini M.Babayev çıxışında Lənkəran-Monterey əlaqələrinin tarixindən söz açaraq, son illərdə həyata keçirilmiş qarşılıqlı səfərlərin bu münasibətlərin yüksələn xətlə inkişafına önəmli töhfə verdiyini dilə gətirib.

Daha sonra Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun konsulu Rəşad Eyvazov çıxış edərək, Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti haqqında məlumat verib. O, ölkəmizdə uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını, insanların öz etiqadlarını, adət-ənənələrini sərbəst şəkildə həyata keçirdiklərini bildirib. R.Eyvazov, həmçinin, Azərbaycan-ABŞ münasibətləri haqqında da danışıb.

Çıxışlardan sonra yerli Azərbaycan icmasının üzvü, skripkaçı Eldar Xudiyevin ifasında Azərbaycan musiqisi təqdim olunub.

Azərbaycanın Respublika Gününün şərəfinə Monterey şəhərinin mərkəzində yerləşən Alvarado küçəsində Azərbaycan bayraqları asılıb.

Qeyd olunmalıdır ki, Azərbaycan nümayəndə heyəti Monterey şəhərinə səfər çərçivəsində ABŞ konqresmeni Cimmi Panetta (Jimmy Panetta), Monterey şəhərinin meri K.Roberson, Şəhər Şurasının üzvü Alan Haffa və Monterey şəhər administrasiyasının rəhbəri Hans Uslerlə görüşlər keçirərək və müxtəlif müəssisə və təşkilatlara baş çəkərək, Lənkəran-Monterey münasibətlərinin inkişafı yollarını müzakirə edib.

# TANAP Türkiyəyə qaz nəql edir və Avropaya nəqlə hazırlaşır

**Bu günə qədər Trans-anadolu boru kəməri ilə (TANAP) 1,9 milyard kubmetr qaz nəql olunub.**

"Trend"in məlumatına görə, bunu SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə Bakıda keçirilən 26-cı Beynəlxalq Xəzər Neft və Qaz konfransında "Xəzər dənizinin Ofşor yataqlarında 70 illik hasilat tarixi" sessiyasında bildirib.

SOCAR-ın birinci vitse-prezidentinin sözlərinə görə, "Şahdəniz" yatağının hesabına Azərbaycan, eləcə də, qaz ölkəsi kimi ad qazanıb.

X.Yusifzadə qeyd edib: "Bu yatağın ehtiyatları 1,2 trilyon kubmetr qaz, 240 milyon ton kondensat təşkil edir".

Onun sözlərinə görə, 2006-ci ildə yataq işlənməyə başlayandan bu günə qədər "Şahdəniz"də qaz hasilatı 104 milyard kubmetrdən çox olub.

SOCAR rəsmisi vurğulayıb ki, hazırda Türkiyəyə qaz nəql edən TANAP Avropaya nəqlə hazırlaşır.

Qeyd edək ki, TANAP Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan "Cənub Qaz Dəhlizi"nin bir hissəsidir.

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib.

Uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

Boru kəməri 2019-cu ilin iyununda Yunanıstan sərhədinə çatacaq. Sınaq işlərindən sonra ilin sonunadək Yunanıstana təbii qaz nəql ediləcək.

### Azərbaycan - Polşa əməkdaşlığı məxfi məlumatların mübadiləsinədək qaldırıldı

# Polşa Prezidenti İlham Əliyevə "münaqişənin həllində hər zaman bizim dəstəyimizə arxalana bilərsiniz" vədi verdi...

## Azərbaycan və Polşa prezidentlərinin təkbətək və geniş tərkibli görüşündə böyük işbirliyinin konturları çəkildi

**Mayın 31-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Polşa Prezidenti Andjey Dudanın təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.**

Polşa Prezidenti Andjey Dudanın Azərbaycana rəsmi səfərinin ikitərəfli münasibətlərin genişlənməsinə töhfə verəcəyi bildirilib.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iştirakı ilə Azərbaycan-Polşa sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Polşa Respublikasının bitki mühafizəsi və toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında fito-sanitariya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Polşa Respublikasının bitkilərin sağlamlığı və toxumçuluq üzrə təftiş müfəttişi Andjey Xodkovski imzalayıb.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı naziri Kriştof Ardanovski imzalayıb.

"Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev və Polşa Respublikasının Daxili Təhlükəsizlik Agentliyinin sədr müavini Kriştof Vatslavek imzalayıb.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev deyib:

-Mən Sizin ölkənizə öz rəsmi səfərimi xatırlayıram. İki il bundan əvvəl biz Sizinlə Polşada görüşmüşdük və o görüş zamanı ikitərəfli əlaqələrimizin gələcək inkişafı haqqında fikir mübadiləsi aparmışdıq. Hesab edirəm ki, iki il ərzində biz böyük yol keçmişik və müxtəlif sahələr üzrə uğurlu əməkdaşlıq formatı yaradılıb. Xüsusilə Polşa və Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu çox önəmli sənəddir və bizim əlaqələrimizin mahiyyətini əks etdirir.

Hesab edirəm ki, biz iqtisadi sahədə daha da fəal işləməliyik. Çünki ticarət dövriyyəsi hələ ki, o qədər də böyük deyil, halbuki potensial var. Bu gün biz bu barədə danışdıq və müəyyən etdik ki, növbəti mərhələdə biznes qurumlarının müntəzəm olaraq bir araya gəlməsi nəticəsində ticarət dövriyyəsi artmalıdır.

Bu gün, eyni zamanda, nəqliyyat sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkələrimiz üçün böyük önəm daşıyır.

Polşa Prezidenti Andjey Duda cavabında deyib:

- Siz iki il öncə ölkəmizə səfər etdiniz. Həmin vaxtdan etibarən bizim ikitərəfli münasibətlərimiz daha da inkişaf etdi və bu, əslində Sizinlə mənim aramda olan şəxsi münasibətlərin də başlanğıcı oldu… On il öncə - hətta həmin vaxtdan da uzun müddətdə Polşanın keçmiş Prezidenti Lex Kaçinski Sizinlə görüşdü. O vaxt o, Sizi özünün yaxın dostu adlandırdı. Həmin vaxtdan etibarən ikitərəfli münasibətlərimiz inanılmaz dərəcədə gücləndi, Polşa ilə Azərbaycan arasındakı münasibətlər daha güclü şəkildə inkişaf etdi.



Hesab edirəm ki, Sizin ölkənizdəki Ələt Beynəlxalq Dəniz Ticarət Limanında yaradılan azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olmalıdır. Sizin ölkəniz artıq bir qovşağa çevrilməkdədir və istərdik ki, Polşa şirkətləri buraya gəlməklə, fəaliyyət göstərməklə bizim mübadilələrimizə böyük töhfə versinlər. Biz Bakının yaxınlığında yerləşən Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından istifadə etmək istəyirik. Ümidvarıq ki, Polşa şirkətləri bu imkanlardan yararlanacaq.

Siz ərazi bütövlüyü məsələsinə toxundunuz və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyinizi bildirdiniz. Bilirik ki, bu məsələ uzun illərdir həll olunmamış qalır. Hazırda biz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüyük. Biz bəyan etmək istəyirik ki, Azərbaycan bu münaqişənin beynəlxalq hüququn normaları əsasında həllində hər zaman bizim dəstəyimizə arxalana bilər. Biz bu problemin sülh yolu ilə həll olunmasında Sizə yardım edəcəyik.

Həmçinin biz istərdik ki, Avropa İttifaqı ilə Azərbaycan arasında çərçivə sazişinə dair aparılan danışıqlar da tezliklə başa çatdırılsın. Bu, həm Azərbaycan vətəndaşları, həm də Avropa İttifaqı vətəndaşları üçün imkanlar yaradacaq. İstərdik ki, Azərbaycan, həmçinin Dünya Ticarət Təşkilatına üzvlük baxımından da nəticələr əldə etsin.

Bakının mərkəzində Polşa memarlarının adını daşıyan küçəni açacağıq. Küçənin adı da çox böyük rəmzi məna daşıyır. Hesab edirəm ki, obrazlı desək, Polşa memarlarının xatirəsi bir daha əbədiləşdiriləcək.

Hörmətli cənab Prezident, demək istəyirəm ki, bu binaları seyr edərkən bizim qəlbimizdə nostalji fikirlər yaranır. Çünki İkinci Dünya müharibəsi zamanı alman faşistləri bizim şəhərlərimizin tarixi abidələrini dağıtmışdılar. Biz həmin mirası yenidən bərpa etməkdə müəyyən çətinliklərlə üzləşdik. Lakin Bakıda bu abidələr çox yüksək səviyyədə qorunub saxlanmışdır. Mən bunu bu gün böyük fərəh hissi ilə qeyd edirəm. Bu gün Bakıda - Azərbaycanın paytaxtında olarkən, qeyd edirəm ki, Sizin çox qiymətli tarixi mirasınız var. Bu mirasın yaradılmasında Polşa memarları da iştirak ediblər.

Mayın 31-də Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi də keçirilib. Paytaxtın Polşa memarları küçəsində keçirilən mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda iştirak edib.

Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Buradakı binaların birində polşalı memarlar - İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunan xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub. Xatirə lövhələrinin müəllifi Azərbaycanın Əməkdar memarı Elbay Qasımzadədir.

Mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda biznes forumda iştirak edib və nitq söyləyiblər.

Biznes forum işini təqdimatlar və iş adamlarının ikitərəfli görüşləri ilə davam etdirib.

# İslahatlar və beynəlxalq tədbirlərin uğurlu təşkilində İlham Əliyev faktoru...

**Son bir ildə Azərbaycan bir çox uğura imza atıb. Azərbaycan müxtəlif beynəlxalq tədbirlərə evsahibliyi edib, ölkədə bir sıra sosial-iqtisadi, idarəetmə ilə bağlı islahatlar həyata keçirilib. Sosial xarakterli paketlər qəbul edilib.**



*"Prezidentin təşəbbüsü ilə həyata keçirilən struktur islahatları, pensiya və müavinətlərin artırılması miqyasına görə genişdir"*

### *Qabil Hüseynli: "Sözügedən işlərin təşkilində, əldə olunan uğurlarda ölkə başçısının rolu böyükdür"*

Reallıq ondan ibarətdir ki, çox geniş sosial-iqtisadi xarakterli işlər görülüb. Belə ki, minimim əməkhaqqı 38 faiz artırılıb. Bütün sosial müavinətlər nəzərəçarpacaq dərəcədə artırılıb. Elə müavinətlər var ki, iki dəfə artırılıb. Həmçinin, yeni müavinət növləri yaradılıb. İdarəçilik sistemi təkmilləşdirilib. Bir-birini təkrarlayan qurumlar ləğv edilib, vətəndaşların müxtəlif xidmətlərdən istifadə imkanları asanlaşıb.

Digər tərəfdən, bu gün Azərbaycan bir çox önəmli beynəlxalq tədbirin, forumların, nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrilib. Bu tədbirlərin keçirilməsi Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən göstərilən diqqətin ifadəsidir. Bunu şərtləndirən başlıca faktor Azərbaycanın, Bakı şəhərinin inkişafı, burada lazımi infrastrukturun yaradılmasıdır. Görünən odur ki, Azərbaycan artıq nəinki beynəlxalq tədbirlərə evsahibliyi edir, hətta bu sahədə yeni ənənələrin yaranmasının təşkilatçısı kimi də çıxış edir. Müşahidələr göstərir ki, ötən dövrdə keçirilən bütün tədbirlər uğurlu alınıb. Məsələn, keçirilən VII Qlobal Bakı Forumu, V Dünya Mədəniyyətlərarası Dialoq Forumu, Avroliqa ilə bağlı final oyunu, Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi bu qəbildən olan tədbirlərdir.

Yuxarıda sadalanan sözügedən sahələrdə uğurların əldə olunmasında şəxsən Prezident İlham Əliyev necə rol oynayıb?

**Məsələyə münasibət bildirən politoloq Qabil Hüseynlinin sözlərinə görə, sözügedən işlərin təşkilində, əldə olunan uğurlarda Prezident İlham Əliyevin rolu böyükdür:** "Bakıda təşkil edilən beynəlxalq tədbirlər, sivilizasiyalar və mədəniyyətlərarası dialoq mövzusunda keçirilən forumlar, humanitar tədbirlər, böyük beynəlxalq yarışlar bu sahədə əldə olunan uğurların göstəricisidir. Avroliqa ilə bağlı Bakıda keçirilən idman tədbiri çox uğurlu alındı. Bütün bunların təşkilində, həyata keçirilməsində və əldə olunan uğurlu nəticələrdə ölkə başçısının xidmətləri böyükdür. Hesab edirəm ki, bu uğurların əldə olunması bilavasitə Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Ona görə də obyektivlik naminə ölkə başçısının bu sahədə xidmətləri yüksək qiymətləndirilməlidir.

Nəzərə almaq lazımdır ki, sözügedən sahələrdə əldə olunan nəticələr beynəlxalq müstəvidə Azərbaycanın imicinə müsbət təsir göstərir. Azərbaycanın beynəlxalq münasibətlərdə oynadığı rola bir dinamiklik verir. Ölkənin nüfuzunun artmasına müxtəlif formalarda müsbət təsir göstərir. Çünki Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən struktur islahatları, pensiya və müavinətlərin artırılması miqyasına görə genişdir. Aparılan islahatlar dünyanın diqqətini cəlb edir. Baxın, bir həftə ərzində ABŞ Prezidenti ölkə başçısına 2 dəfə məktub göndərib.

**Bu onu göstərir ki, Azərbaycan çox böyük nüfuza malikdir və ortalıqda böyük nəticə var. Azərbaycanın sahib olduğu nüfuzun kökündə sadalanan böyük işlər dayanır. Hansı ki, bu sahədə əldə olunan uğurlarda Prezident İlham Əliyevin rolu bütün mənalarda böyükdür".**

***Vidadi ORDAHALLI***

# Həmsədrlər Prezident İlham Əliyevlə görüşdükdən sonra "Qarabağ yolunda" konkret addımlardan danışdılar...

**Məlum olduğu kimi, ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfərləri çərçivəsində Prezident İlham Əliyevlə görüşüblər. Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.**



*"Buna baxmayaraq, bu format çərçivəsində danışıqlar aparılırsa, o zaman konkret təkliflər nəzərə alınmalıdır"*

### *Məhəmməd Əsədullazadə: "Minsk Qrupunun həmsədrlərinin təklifləri məcburi deyil, tövsiyə xarakteri daşıyır"*

Daha sonra ATƏT Minsk Qrupu həmsədrlərinin birgə bəyanatı yayılıb. Bəyanatda həmsədrlərin regiona son səfərləri və keçirilən görüşlər qeyd olunub. Ən maraqlısı odur ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində konkret sonrakı addımlar haqqında təkliflərini təqdim ediblər: "İstəyə uyğun olaraq, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində konkret sonrakı addımlar, həmçinin, humanitar və təhlükəsizlik tədbirləri haqqında təkliflərini təqdim ediblər. Azərbaycan və Ermənistanın XİN rəhbərləri həmsədrlərin yaxın zamanda onların himayəsi altında görüşün keçirilməsi barədə təklifini qəbul ediblər və təfərrüatları müvafiq vaxtda açıqlayacaqlar".

Onu da qeyd edək ki, son vaxtlar Qarabağ danışıqlarında müəyyən aktivlik elementləri nəzərə çarpır. Xatırlaaq ki, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların Kazan psinsipləri əsasında aparıldığını deyib. Onun fikrincə, özündə kompromis prinsipləri nəzərdə tutan Kazan prinsiplərinə görə, Ermənistan Azərbaycana işğal olunmuş 7 ətraf rayonu geri qaytarmalıdır. Ondan sonra digər məsələlər həll edilməlidir.

Digər tərəfdən, Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov da Ermənistanın yeni rəhbərliyinə məsələnin öyrənilməsi üçün vaxt verildiyini və hazırda o vaxtın bitdiyini deyib. Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan isə pozuculuq mövqeyindən çıxış edərək Məmmədyarovun səsləndirdiyi fikirlərə başqa don geydirməyə çalışıb. Onun fikrincə, guya bu cür ritorika "danışıq ritorikası" deyil və danışıq aparan tərəfə yaraşmır.

Bütün bu deyilənlərin fonunda, həmsədrlərin münaqişənin nizamlanması ilə bağlı konkret sonrakı addımlar haqqında təkliflərini ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, konkret təkliflər olsa da, ATƏT-in Minsk Qrupu ciddi rıçaqlara malik deyil:** "ATƏT-in Minsk Qrupu Qarabağ konfliktinin həlli istiqamətində heç bir təzyiq rıçaqlarına malik olan institut deyil. Sadəcə olaraq təkliflər irəli sürə bilir və münaqişə tərəflərini bir masa arxasında əyləşdirir. Ona görə də Minsk Qrupunun həmsədrlərinin təklifləri məcburi deyil, tövsiyə xarakteri daşıyır. Buna baxmayaraq, bu format çərçivəsində danışıqlar aparılırsa, o zaman konkret təkliflər nəzərə alınmalıdır. Qeyd edim ki, danışıqlar yenilənmiş Madrid prinsipləri və BMT qətnamələri çərçivəsində aparılmalıdır. Həmsədrlərin bundan əlavə irəli sürdüyü konkret təkliflər təmas xəttində atəşkəsin monitorinqi üzrə müşahidə kameralarının qoyulmasıdır. Belə bir absurd təkliflə Azərbaycan razılaşa bilməz. Hesab edirəm ki, danışıqlara impuls vermək üçün həmsədr ölkələr təzyiq vasitəsinə əl atmalıdırlar. Belə olmasa, aparılan danışıqlar formatında heç bir real dəyişiklik gözlənilmir. Minsk Qrupu yalnız quru bəyanatlar verməklə manipulyasiya siyasəti aparır. Həmsədrlərin növbəti səfərində də biz yenə bənzər bəyanatın şahidi olduq. İlk növbədə danışıqlar formatında Minsk Qrupu ləğv edilməlidir.

Danışıqlar birbaşa Bakı və İrəvan arasında aparılmalıdır. Çünki Minsk formatında ölkələrin maraqları toqquşur. Nəticədə danışıqlar səmərəsiz olur. Məhz Qarabağ danışıqları da bu qəbildəndir. O baxımdan elə də müsbət irəliləyiş gözləmirəm".

***Vidadi ORDAHALLI***

Rusiya müdafiə nazirinin müşaviri ABŞ-ın dövlət siyasəti problemlərinin həllini hazırlayan "RAND Corporation" qeyri-kommersiya tədqiqat institutunun "rəqibin potensial çağırışları qarşısında" ayıq-sayıq olmağı Ermənistana tövsiyə edən məruzəsi ilə bağlı narahatlıqlarını bölüşüb.

# Rusiya müdafiə nazirinin müşavirindən Azərbaycanın "Qərb yolu" barədə maraqlı şərh...

## Elşən Həsənov: "Dolayısı ilə münaqişə tərəflərinə xəbərdarlıq edir ki, kənar qüvvələrin regiona nüfuz etməsinə şərait yaratmayacaq"



Məsələni Rusiya mətbuatına şərh edən Andrey İlnitski ABŞ-ın Cənubi Qafqaz regionundakı labüd rolu barədə xəbərdarlıq edərək, Rusiya ilə birgə müqavimət üsullarından ətraflı söhbət açıb. ABŞ-ı "Qafqazda qaçılmaz olaraq rol oynayacaq oyunçu" adlandıran İlnitski deyib ki, ABŞ Rusiyanın Cənubi Qafqazda çox möhkəm mövqe tutduğunu etiraf edir, lakin cənubda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi fonunda ziddiyyətlər heç də oyuncaq deyil: "Deyirlər, Azərbaycan Qərbə doğru irəliləyəcək", - deyən İlyinski qeyd edib ki, bir çox hallarda bu təsadüfi deyil, çünki burada təkcə Ermənistan deyil, bütün region diqqət mərkəzindədir və istənilən halda, həm erməni, həm də azərbaycanlı dostlar sayıq olmalıdırlar: " ...çünki düşmən heç vaxt yatmır", - deyə o əlavə edib.

Qeyd edək ki, ABŞ-lı məruzə müəllifləri Rusiyanın, "BMT istisna olmaqla", bütün beynəlxalq təşkilatlardan xaric edilməsinə dair maksimum güclü səylərə" çağırıblar.

İlyinskinin açıqlamasında olduqca maraqlı məqam nəzərə çarpır. Rusiya rəsmisi qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsi hazırda geopolitik miqyas alıb və bu məsələnin nizama salınması üçün Azərbaycanın hərəkət trayektoriyası Qərbə doğru olacaq. Bununla Rusiya rəsmisi nəyə işarə etmək istəyib?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanın mühüm geosiyasi və coğrafi mövqedə yerləşməsi bütün xətlərin ölkəmizdən keçməsinə səbəb olur:** "Bunu ABŞ da dəyərləndirməyə başlayıb. Çünki ABŞ-ın İran, Əfqanıstan, Rusiya, Türkiyə ilə bağlı istiqamətləri Azərbaycandan keçir. ABŞ Dağlıq Qarabağ münaqişəsinin həllində iqtisadi mənafelərini qorumağa çalışır. Çünki regiona hər hansı bir sərmayənin yatırılması üçün münaqişənin həlli vacibdir. ABŞ-ın və Qərbin böyük şirkətləri də bunda maraqlıdırlar. Bu onlara böyük iqtisadi dividendlər gətirə bilər. Geosiyasi, siyasi tərəfdən də münaqişənin həlli ABŞ üçün müsbət haldır. Çünki bununla ABŞ İrana daha da yaxınlaşmış olacaq. Bundan başqa, problemin həlli ilə ABŞ Rusiyanı sıradan çıxara bilər. Əgər əvvəllər münaqişənin həllində Rusiyanın açar rolunda olduğu bildirilirdisə, bu gün ABŞ burada da rolunu artırmağa çalışır. Kim münaqişənin həllinə nail ola bilsə, o əlbəttə ki, Azərbaycanın dostuna çevrilmiş olur və qarşısına qoyduğu məqsədlərə çatmaq imkanları genişlənir. Bu baxımdan da Rusiyanın hərbi qanadında təmsil olunan, yüksək post tutan şəxsin regionda ABŞ-Rusiya toqquşmasından danışarkən Azərbaycanın Qərbə səmt götürəcəyini deməsi, ardınca xəbərdarlıq notunda danışması təsadüfi deyil. Rusiya rəsmisinin bu aspektdə Qərb istiqamətini hallandırması ABŞ-la eyni mahiyyəti daşıyır. Yəni iki yön nəzərdə tutulur: ya Rusiya, ya da Avroatlantik məkana inteqrasiya. Rusiya buraları öz təsir dairəsi sayır. Buna görə də dolayısı ilə münaqişə tərəflərinə xəbərdarlıq edir ki, kənar qüvvələrin regiona nüfuz etməsinə şərait yaratmayacaq. Azərbaycan bunları dərk edir. Uzun müddətdir bizim xarici siyasətimizdə konkret yön yox, tarazlaşma nəzərə çarpır".

*Məhəmmədəli QƏRİBLİ*

ATƏT-in Minsk Qrupu həmsədrlərinin İrəvandan sonra Bakıda olduğu gün erməni separatçılarının atəşkəsi pozaraq hərbçimizi şəhid etməsi təsadüfi hadisə sayıla bilməz. Xəbər verildiyi kimi, cəbhənin Ağdam rayonu istiqamətində düşmən təxribatı nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Omarov Aqil Akif oğlu şəhid olub.

# Həmsədrlər gələn gün Azərbaycan hərbçisinin öldürülməsində Ermənistan - uydurma "DQR" ziddiyyətləri faktoru...

## Daşdəmir Əliyev: "Düşmən snayperinə atəş əmrini kimin verməsindən asılı olmayaraq..."



1983-cü il təvəllüdlü Aqil Omarov mayor olub. O, Qax rayonunun Lələpaşa kəndinə yaşayıb.

Düşmən qüvvələrinin bu fəallığı Ermənistan hakimiyyəti ilə "Qarabağ klanı", o cümlədən, Dağlıq Qarabağdakı rejimin "rəhbərliyi" arasında münasibətlərin xeyli gərgin olduğu vaxta təsadüf edir. Bu günlərdə Baş nazir Nikol Paşinyan bildirib ki, keçmiş rejim və onun Qarabağdakı adamları təmas xəttində vəziyyəti gərginləşdirməklə müharibə başlatmaq, "bəzi əraziləri" verməklə günahı hakimiyyətin üstünə atmaq kimi planlar qururlar.

Bu baxımdan təmas xəttinin Ağdam istiqamətində düşmən ordusunun fəallığının arxasında Paşinyanın özünün, yoxsa "Qarabağ klanı"nın dayandığı haqda suallar var. Hərçənd Paşinyan özü də üzləşdiyi siyasi təzyiqlər qarşısında təmas xəttində vəziyyəti gərginləşdirmək niyyətinə düşə bilərdi.

Hazırkı situasiyada atəşkəsi pozmaq əmrinin verilməsində İrəvan, yoxsa Qarabağ separatçıları maraqlı ola bilər?

**Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, düşmən snayperinin açdığı atəşlə təmas xəttinin Ağdam istiqamətində Azərbaycan Ordusunun zabitinin şəhid olması ötən ilin oktyabrında münaqişə tərəflərinin liderləri arasında Düşənbədə əldə edilmiş razılaşmadan bəri baş vermiş ən ciddi insidentdir:** "MDB sammiti zamanı Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilmiş qeyri-formal görüşdə əldə edilmiş razılaşmadan sonra təmas xəttində gərginlik xeyli azalmışdı. Hərçənd Ermənistan ordusu bu razılaşmanı daha əvvəl də pozub və nəticədə ordumuz şəhid verib. İndiki halda isə düşmən snayperi ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfərləri çərçivəsində Bakıda görüşlər keçirdikləri saatlarda zabitimizi hədəf alıb. Ermənistandakı rejimin başını itirdiyini görürük. Onların daxilində vəziyyət xeyli gərgindir. Ancaq buna baxmayaraq, təmas xəttindəki vəziyyət vahid mərkəzdən idarə olunur. Düşünmürəm ki, burada kimsə özfəaliyyət edə bilsin. Məqsədləri də budur ki, bütün vasitələrlə sülh danışıqlarını əngəlləsinlər. Ermənistan tərəfində biz belə halları daim müşahidə etmişik. Dəmirçyan parlamentin sədri olan vaxtı da sülh danışıqlarında irəliləyiş müşahidə olunurdu. Nəticədə silahlı qrup girib parlamentdə Ermənistanın bütün rəhbərliyini güllələdi. İstənilən halda, düşmən snayperinə atəş əmrini kimin verməsindən asılı olmayaraq, hərbçimizin şəhid olmasına görə düşmən öz cəzasını artıqlaması ilə almalıdır. Belə vəziyyətdə təmkin göstərmək düşməni daha da azğınlaşdıra bilər.

Bundan əvvəl müdafiə naziri Zakir Həsənov təmas xəttinin elə həmin istiqamətində olarkən düşmənin hər hansı təxribatının qarşısının bütün silah sistemlərindən istifadə olunmaqla alınması barədə göstəriş vermişdi. Bu baxımdam, Azərbaycan Ordusunun şəhid zabitinin qanının yerdə qalmayacağına ümid etmək olar".

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ dövlət borcunun fantastik 22 trilyona çatması manat üçün yeni şərait yaradır

**Son günlərdə qonşu ölkələrdə ABŞ dollarının məzənnəsinin yenidən sürətlə artması müşahidə olunur. Gürcüstanda, Türkiyədə, İranda dollar yenə də milli valyutalar qarşısında nəzərəçarpacaq dərəcədə dəyər qazanır. Rusiyada da dolların cüzi miqdarda bahalaşması qeydə alınır. Həmin ölkələrlə müqayisədə Azərbaycanda sabit maliyyə durumu hökm sürür.**

Dolların məzənnəsi sabitdir, avro isə manat qarşısında son aylarda xeyli dəyər itirib. Üstəlik, ölkəyə daxil olan valyutanın miqdarının artmaqda davam etməsi bundan sonra da manat üçün hansısa təhdid yaranmadığını göstərir.

Digər tərəfdən, dünya iqtisadiyyatında, xüsusən də ABŞ-da gedən proseslər dolların bəzi valyutalar, o cümlədən manat qarşısında dəyər itirməsini istisna etmir. Söhbət ilk növbədə ABŞ-ın sürətlə artan borcunun dolların gələcək taleyinə ciddi təsirindən gedir. Aparılan araşdırmalar göstərir ki, ABŞ-ın 1980-ci ildə 908 milyard dollar olan borcu son 39 ildə büdcə kəsirinin borc hesabına maliyyələşməsi sayəsində astronomik həddə artıb. ABŞ Maliyyə Nazirliyinin məlumatına görə, Birləşmiş Ştatların dövlət borcu 22 trilyon dolları keçib. Dövlət büdcəsinin kəsiri ötən maliyyə ilində 17 faiz artımla 779 milyard dollar həddindədir, rəqəmin 2020-ci ildə 1 trilyona bərabərləşəcəyi ehtimalı edilir.




Qeyd edək ki, Birləşmiş Ştatların dövlət borcu Donald Trampın prezidentliyi dövründə, yəni 20 yanvar 2017-ci il tarixindən bu günə qədər 2 trilyon dollardan çox artıb. "USA Today" nəşrinin yazdığına görə, Donald Trampın dövründə keçirilən və ABŞ dövlət büdcəsinə 1,5 trilyon dollara başa gələn vergi islahatları, həmçinin müdafiə xərclərinin artması nəticəsində dövlət borcu görünməmiş sürətlə artır. Eyni zamanda, hökumətin xərclərinə nəzarət olunmaması fonunda dövlət borcunun sürətli artım tendensiyası da davam edir. ABŞ ekspertləri özləri də bildirir ki, bütün bunlar olduqca dəhşətli rəqəmlərdir. Müqayisə üçün deyək ki, dünyanın fiziki cəhətdən mövcud bütün qızıl və gümüşünün pulla ifadəsi təxminən 14 trilyon dollara yaxındır, ABŞ-ın borcu isə bundan 8 trilyon çoxdur. Dünya üzrə bir il ərzində neft ixracından əldə edilən gəlir ABŞ-ın dövlət borcundan 25 dəfə azdır. Səudiyyə Ərəbistanı Vaşinqtonun xeyrinə bütün neft qazancından imtina eləsə, o zaman borcların tam qayratılması üçün təxminən 150 il vaxt lazımdır. ABŞ-ın 500 nəhəng şirkətinin satılması belə bu borcu ödəməyə kifayət etmir. Araşdırmalar göstərir ki,

ABŞ dövlət borcunun yaranmasının səbəbi büdcə gəlirləri xərclərdən az olduğu üçün dövlətin qiymətli kağızlarını tədavülə buraxaraq maliyyələşməni həyata keçirməsidir. Belə ki, büdcəyə daxilolmalar vergi, rüsum və digər birbaşa transferlərdən ibarət olduğu halda, xərclərin qarşılanması üçün bu vəsait kifayət etmir. Yəni faktiki olaraq, vergi və rüsum kimi vergi ödəyicilərindən toplanaraq maliyyələşməli olan proqramlar uzunmüddətli borc qiymətli kağızlarının satılması ilə maliyyələşir. Dövlət borc qiymətli kağızları dünya bazarında tədavülə buraxılır və ölkələr, hüquqi şəxslər və digər banklar istədiyi qədər borc qiymətli kağızı əldə etmək üçün ABŞ hökümətinə qiymətli kağızların bazar dəyərini ödəyir. Əlbəttə ki, bu dövlət borc qiymətli kağızları investorlara müəyyən faiz gəlirdə qazandırır. Amma ABŞ-ın artan borcu fonunda investorlar tədricən Amerikanın qiymətli kağızlarına sərmayə yatırmaqdan imtina edir. İndilikdə isə ABŞ-da Mərkəzi Bank rolunu oynayan FED-lə hökumət arasında baş verənlər də ABŞ-ın borcunun əhəmiyyətli dərəcədə artmaqda davam edəcəyini göstərir. Məsələ burasındadır ki, digər ölkələr FED-dən borclana bilmir və dollar əvəzində müəyyən xidmət və ya əmtəə, məhsul verməlidirlər. Məhz bu halda FED onlara dollar borcu verir. ABŞ hökuməti isə bu barədə çox sərbəstdir. ABŞ hökuməti kağız əskinasları almaq üçün qiymətli kağız tədavülə buraxır və faktiki olaraq kağız pulun arxasında heç bir əmtəə dayanmır. Sadə izah etsək, dollar çap etmək üçün FED-ə yalnız çap maşını, ABŞ hökümətinə isə FED-ə verəcəyi borc qiymətli kağız lazımdır. Özü də bu alış-verişin bir limiti görünmür. ABŞ hökuməti borcunu ödəyə bilməsə də, yenə qiymətli kağız buraxaraq FED-dən dollar ala bilər. Məhz bu fonda da ABŞ hökümətinin dövlət borcu sürətlə artır. Amma proseslərin bu səpkidə inkişafı artıq investorlarda ciddi narahatlıq yaradır. Elə bu səbəbdən ABŞ-ın qiymətli kağızlarından qurtulmaq istəyən investorların sayı artır.

Ümumiyyətlə, son dövrlərdə ABŞ-ın dövlət borcu və iqtisadi inkişafı investorların xüsusi diqqət mərkəzindədir. ABŞ-da baş verənlər fonunda bazarın əksər iştirakçıları dollar üzrə satış mövqeyindədir. Onların fikrincə, dollarda sürətli məzənnə enişi yaşana bilər. Həmçinin, ABŞ-ın bəzi ölkələrə qarşı iqtisadi savaşı da duruma təsir edir. Məsələn, Çin, Rusiya kimi ölkələr ABŞ-dan aldıqları qiymətli kağızları satır. Bu ölkələrin və digərlərinin istiqraz satışından əldə etdiyi dollar kütləsini satışa çıxaracağı və bu yolla Amerika valyutasının məzənnəsini zəifləcəyi gözlənir. Bir sıra ərəb ölkələri də ABŞ qiymətli kağızlarından xilas olmağa çalışır. Əsas səbəb isə ABŞ-ın borcu və bu ölkə iqtisadiyyatında baş verçənlərdir. Hadisələrin bu səpkidə inkişafı isə dollar imperiyasının qısa müddətdə çökməsini və Amerika milli valyutasının sürətlə dəyər itirməsini istisna etmir. Qeyd edilənlər fonunda qarşıdakı dövr ərzində manatın dollar qarşısında artıq müəyyən qədər dəyər qazanması qaçılmaz sayılır. Düzdür, bunu şərtləndirən səbəb təkcə ABŞ-da baş verənlər deyil. Azərbaycanda idxalın getdikcə azalması, ixracın artması da dolların mövqeyini zəiflədir. Bu gedişlə dollara tələbin, sifarişin daha da azalacağı gözlənir. Bu da, təbii ki, manatın məzənnəsinin möhkəmlənməsinə təsir göstərir. Eyni zamanda, ölkəyə daxil olan dollar kütləsinin sürətli artımı da prosesə təsir edir. Dollarla yanaşı, avronun da manata nisbətdə müəyyən qədər dəyər itirməsi müşahidə olunur.

Ümumiyyətlə, son dövrlərdə dünya maliyyə bazarlarında avronun əhəmiyyətli dərəcədə ucuzlaşması müşahidə olunur. Avropa iqtisadiyyatında baş verənlər səbəbindən hesab olunur ki, avro bazarda uzun müddət təzyiq altında qalmaqda davam edəcək. Bu hal manatın avroya nisbətdə də bahalaşmasını şərtləndirir. Dollar və avro ilə yanaşı, manat digər valyutalara nisbətdə də mövqeyini qoruyur və bu prosesin hələ uzun müddət məhz bu səpkidə inkişafı gözlənir.

***Tahir TAĞIYEV***

**Ermənistan hökuməti, xüsusən də bu ölkənin Baş naziri Nikol Paşinyan idmandan siyasi məqsədlər üçün istifadə edir. "Arsenal" futbol komandasının erməni əsilli oyunçusu Mxitaryanın Bakıda keçirilən UEFA Avropa Liqasının final oyununda iştirak etməməsinin əsl səbəbləri bir tərəfdə qalıb, Paşinyan və Mxitaryan bu hadisəyə siyasi don geydirməyə çalışırlar.**

# Ermənidən başqa kimsənin yaşamadığı Ermənistanın rəhbəri Azərbaycanı rasizmdə suçlayır - böhtançı bəyanatın cavabı...



*"Onun durub multikulturalizmin, tolerantlığın tam bərqərar olduğu Azərbaycanı irqçilikdə suçlaması doğrudan da absurddur, çox gülüncdür"*

**Qasım Hacıyev:** *"Futbol oynadığına görə ona verilən pulları və erməni diasporundan aldığı maliyyəni Qarabağda mövcud olan separatçı dəstələrə yardım olaraq göndərir"*

Məlum olduğu kimi, Ermənistan Baş naziri N.Paşinyan "Arsenal" futbol klubunun oyunçusu H.Mxitaryanla telefon söhbəti edərək onun UEFA Avropa Liqasının final oyununda Bakının irqçi mövqeyinə görə iştirak edə bilmədiyini vurğulayıb. Monoetnik dövlətə rəhbərlik edən bir şəxsin multikultural bir ölkəyə "irqçi dövlət" donu geydirməsinin heç bir əsası yoxdur.

Qeyd edək ki, məlum məsələyə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva da münasibət bildirib. XİN sözçüsü "Ermənistan Baş nazirinin özünə aid olmayan məsələlərə qarışaraq, idmanı siyasiləşdirməsi, görünür, onun üzləşdiyi daxili problemləri bu kimi addımlarla pərdələmək cəhdlərindən irəli gəlir. Ermənistan kimi monoetnik dövlətin və qonşu Azərbaycanın ərazilərini güc tətbiq etməklə işğal edərək bu ərazilərdə zorakı etnik təmizləmə həyata keçirən, Xocalıda qanlı soyqırımı törədən bir ölkənin rəhbərinin irqçilikdən danışmağa heç bir haqqı yoxdur. Bu hər hansı əxlaqa sığmır. Ermənistan Baş nazirinə xatırladırıq ki, torpaqlarımızın erməni silahlı qüvvələrinin işğalı altında olmasına rəğmən, Azərbaycanda bu gün on minlərlə erməni yaşayır və ümumiyyətlə, ölkəmizdə müxtəlif dinlərin və millətlərin nümayəndələri hər zaman sülh və əminamanlıq şəraitində birgə yaşayıblar və yaşayırlar. Onu da qeyd edim ki, Ermənistanın böyük qısqanclıqla izlədiyi və hər vəchlə əsassız şəkildə gündəmə gətirdiyi Avropa Liqasının Bakıdakı final oyunu zamanı Azərbaycana səfər edən çoxsaylı əcnəbi pərəstişkarlar ölkədəki vəziyyətlə öz gözləri ilə tanış olublar. Necə deyərlər, yalan ayaq tutar, ancaq yeriməz!" - açıqlaması ilə çıxış edib.

**Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Ermənistanda ermənilərdən və erməniləşdirilmiş yezidi kürdlərdən başqa xalq yaşamır.** Ermənistan dövlətinin tamamilə monoetnik olduğunu vurğulayan Q.Hacıyevin sözlərinə görə, belə bir dövlətin başçısının Azərbaycan kimi tolerant, multikultural dövləti irqçilikdə ittiham etməsi yersizdir. Q.Hacıyev vurğuladı ki, Mxitaryan bir futbolçu kimi futbolla deyil, çirkin siyasətlə məşğul olur. "Ciddi adamlar çox yaxşı bilirlər ki, Paşinyan özü çox qeyri-ciddi adamdır. Digər tərəfdən, Paşinyan ən ciddi hərbi və siyasi məsələlərdə o qədər avantürist çıxışlar edir ki, bu da onun qabiliyyətinin ancaq idmandan, futboldan danışmağa çatdığını göstərir. Orda da təxribata yol verir. Paşinyanın Mxitaryanla telefon söhbətində Azərbaycanı "irqçi" dövlət adlandırması iddiasının heç bir əsası yoxdur. Paşinyanın Qarabağa gəlib qayıtması, oğlunu ora hərbi xidmətə göndərməsi və s. çox biabırçı hərəkətlərdir. Bununla belə, onun durub multikulturalizmin, tolerantlığın tam bərqərar olduğu Azərbaycanı irqçilikdə suçlaması doğrudan da absurddur, çox gülüncdür. Paşinyan utansın ki, Mxitaryan məsələsindən danışır. Mxitaryan gedib dünya ictimaiyyətinə izahat versin ki, futboldan qazandığı pulları hara xərcləyir və buna görə də Azərbaycandan da üzr istəsin. Mxitaryan futbol oynadığına görə ona verilən pulları və erməni diasporundan aldığı maliyyəni Qarabağda mövcud olan separatçı dəstələrə yardım olaraq göndərir.

**Mxitaryan kimi separatizmə dəstək verən və adını "futbolçu" qoyan bir adamla danışmaq, ona dəstək vermək dövlət başçısına yaraşmayan bir hərəkətdir. Mxitaryan gedib futbolla məşğul olsun, o, siyasətçi və dövlət adamı deyil. Bizdə Mxitaryanın təxribatla məşğul olması barədə faktlar var".**

***İradə SARIYEVA***

---

**Məlum olduğu kimi, son vaxtlar Ermənistanda iki klan arasında qarşıdurma daha da dərinləşməyə başlayıb. Ölkədə sözügedən klanlar arasında nüfuz müharibəsi əsasən 90-cı illərdə genişlənib. Məsələ ondadır ki, Rusiyanın yardımı ilə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etməsi separatçı "Qarabağ klanı"nın daha da güclənməsinə gətirib çıxardı.**

# Ermənistan - qondarma "DQR" konfliktini necə qızışdırmalı...



*"Artıq bu ölkədə Dağlıq Qarabağ mövzusu birləşdirici faktor rolunda deyil"*

**Elçin Mirzəbəyli:** *"Ermənistanın ictimai rəyinə təsir vasitələri gücləndirilməlidir"*

Qarabağ münaqişəsinin ən gərgin fazasında belə, oradakı separatçılar daha çox Rusiya ilə hesablaşırdılar, nəinki Ermənistanla. Dağlıq Qarabağ və digər ərazilərin işğal olunması sözügedən klanın 1998-ci ildə Levon Ter-Petrosyan hakimiyyətini devirməsinə gətirib çıxardı.

Bu klan məhz Qarabağ dalğasında Ermənistanda hakimiyyəti ələ keçirdi. Zaman-zaman Ermənistanda "Qarabağ klanı"na qarşı münasibət mənfi olub. Çünki bu klanın hakimiyyətdə olduğu 20 il ərzində Ermənistanda sosial-iqtisadi problemlər daha da pisləşib. Nəticədə 2018-ci ilin aprelində baş verən "məxməri inqilab"dan sonra "Qarabağ klanı" hakimiyyətdən getdi.

Yerli ermənistanlıları təmsil edən qüvvələrin hakimiyyətə gəlməsi iki tərəf arasında ziddiyyətlərin növbəti müstəviyə keçməsinə səbəb oldu. Görünən odur ki, hər keçən gün münasibətlər daha da gərginləşir. Köçəryan həbsdən çıxandan sonra "Qarabağ klanı" Paşinyan hakimiyyətini devirmək üçün səylərini artırıb.

Təbii ki, Ermənistanda klan savaşının dərinləşməsi Azərbaycanın mənafeyinə uyğundur. Maraqlı olan məqam odur ki, Azərbaycan Ermənistanda bu qarşıdurmanın dərinləşməsinə nə kimi təkan verə bilər? Çünki bu bizim üçün çox vacibdir. İşğal altında olan ərazilərin azad olunması baxımından bu bizə lazımdır. Ona görə də Azərbaycan təbliğat və digər nöqteyi-nəzərdən bu yöndə nə kimi işlər görə bilər?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, bu məsələdə təbliğat nöqteyi-nəzərdən daha çox iş görmək lazımdır:** "Əvvəla Azərbaycan, prinsipcə, nə etmək lazımdırsa, onu edir. Ermənistanda proseslərin daha ziddiyyətli hal alması gözləniləndir. Bu prosesdə Azərbaycanın da rolu var. Ölkəmizin işğalçı Ermənistanın təcrid edilməsi ilə bağlı yürütdüyü siyasət indiki şəraitdə özünün effektiv nəticəsini verib. Aprel döyüşlərində Ermənistanda hansı siyasi gərginliyin yaşandığını və nəticə etibarilə bunun hakimiyyət dəyişikliyinə gətirib çıxardığını gördük. Bu baxımdan, Ermənistana qarşı pressingi daha da artırmaq lazımdır. Yeni təcridetmə siyasəti daha da güclənməlidir. Həmçinin, Ermənistanın ictimai rəyinə təsir vasitələri gücləndirilməlidir. Yaranan situasiyadan öz maraqlarımız üçün maksimal şəkildə istifadə etməyə çalışmalıyıq. Çünki artıq Ermənistanda Dağlıq Qarabağ mövzusu birləşdirici faktor deyil. Bu faktor ayrıcı faktor rolunda çıxış edir. Bu da bizim xeyrimizə olduğu üçün bundan fydalanmalıyıq. Bu gün Ermənistanda elə bir situasiya yaranıb ki, artıq "Qarabağ klanı" ilə Paşinyan tərəfdarları bir-birilə hərbi ritorika ilə danışırlar.

Sabiq prezident Robert Köçəryanın son açıqlamalarında da bunu gördük. Artıq "Qarabağ klanı" ilə "İrəvan klanı" arasında münaqişə daha da dərinləşir. Bütün bunlar Ermənistanda vətəndaş qarşıdurmasını daha da dərinləşdirə bilər".

***Vidadi ORDAHALLI***

**Gələn ilin əvvəlində "Cənub Qaz Dəhlizi"nin tam şəkildə işə düşməsi ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında rolu daha da artacaq. Məhz bu fonda Avropanın, eləcə də ABŞ-ın Azərbaycanla işbirliyini getdikcə daha da dərinləşdirməsi müşahidə olunmaqdadır.**

# Azərbaycan 5 milyardlıq "ölü layihəni" canlandırır

## *Ölkəmiz Avropanın qaz təchizatında liderliyini artırmağa başladı...*

Eyni zamanda, bu Qərb ölkələrinin əsas niyyəti Azərbaycanın yaratdığı enerji infrastrukturu vasitəsilə Avropaya daha çox qazın nəqlinə nail olunmasıdır. Bu xüsusda indi diqqət mərkəzində yer alan başlıca məqam "Transxəzər" qaz kəmərinin çəkilişinə nail olmaqdır.

Xatırladaq ki, artıq Avropa İttfaqı qeyd olunan səpkidə aktiv fəaliyyət göstərir. Prosesdə maraqlı tərəflərdən biri də ABŞ-dır. Yeri gəlmişkən xatırladaq ki, ABŞ prezidenti Donald Tramp Beynəlxalq Xəzər Neft - Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda yenidən bu məsələyə ayrıca toxunub. Məktubunda ABŞ dövlət başçısı qeyd edir: "Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmayıbr. "Cənub Qaz Dəhlizi" daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir. Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır. Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcək".

İndi həm ABŞ, həm də Avropanın "Transxəzər"in çəkilişinə daha böyük maraq göstərməsinin ümdə səbəbi Azərbaycanın türkmən qazını da təhlükəsiz şəkildə Avropaya çatdırmaq üçün müvafiq infrastruktura malik olmasıdır. Əslində, qeyd edilən məqam türkmən tərəfinin də diqqətini getdikcə daha çox özünə cəlb edir. Bunu Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun MDB ölkələri Hökumət Başçıları Şurasının iclasına qatılmaq üçün Aşqabada gələn Azərbaycan baş naziri Novruz Məmmədovla görüşündən də aydın sezmək olar.

Türkmənistan Dövlət Xəbər Agentliyinin məlumatına görə, görüş zamanı danışıqların əsas mövzularından biri "Avrasiya qitəsi ölkələrinə" qaz təchizatı məsələsi olub: "Qurbanqulu Berdiməhəmmədov və Novruz Məmmədov ikitərəfli münasibətlərin müxtəlif sahələrini müzakirə edərək vurğulayıblar ki, ticarət, iqtisadiyyat, energetika və digər sahələrdə səmərəli tərəfdaşlıq üçün böyük imkan və perspektivlər var. Bu baxımdan, Türkmənistan və Azərbaycanın Avrasiya qitəsi ölkələrinə uzunmüddətli enerji tədarükünü təşkil etmək üçün optimal şərait yaradan neft və qaz ehtiyatlarına malik olduqlarına diqqət çəkilib". Bundan əlavə, görüşdə qeyd olunub ki, müasir nəqliyyat və logistika infrastrukturu, o cümlədən Xəzər dənizindəki limanlar vasitəsilə Türkmənistan və Azərbaycan malların ən qısa marşrutlar üzrə səmərəli və qənaətli nəqlini təmin edə bilər. Bu fikirlərdən aydın görünür ki, artıq tərəflər birlikdə "Transxəzər"in çəkilişində maraqlıdır və Xəzərin hüquqi status probleminin həlli də buna lazımi imkanlar yaradır. "Transxəzər"in dənizin dibi ilə çəkilərək Azərbaycana gətirilməsi, buradan isə "Cənub Qaz Dəhlizi"nə qoşularaq türkmən qazının Avropaya çatdırması planlaşdırılır. Layihələndirilmiş boru kəmərinin gücü ildə 30 milyard kubmetr təbii qaz təşkil edir. Boru kəmərinin təxmin edilən xərci 5 milyard dollar, nəzərdə tutulan uzunluğu 300 kilometrdir. ABŞ və Avropa maliyyə qurumları kəməri maliyyələşdirməyə hazır olduqlarını bildirir. ABŞ-ın nüfuzlu "The National Interest" jurnalı yazır ki, "Transxəzər"in çəkilişi Qərb üçün artıq müstəsna əhəmiyyət kəsb edir: "Transxəzər" qaz kəməri təbii qazın Xəzər dənizindən nəql edilməsinin iqtisadi baxımdan yeganə məqsədəuyğun üsuludur. Bu boru kəməri Avropanın enerji landşaftını dəyişə bilər. "Transxəzər" qaz kəməri Avropa ölkələrinin digər təchizatçıların inhisarından asılılığını da azalda bilər. Üstəlik, keçən il beş Xəzəryanı ölkə tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya boru kəmərlərini yalnız layihədə iştirak edən ölkələrin razılığı ilə çəkməyə imkan verir, bu da öz növbəsində yeni imkanlar yaradır. "Transxəzər" boru kəmərini inşa etməzdən əvvəl Bakı və Aşqabad Xəzər dənizində Azərbaycanın və Türkmənistanın offşor yataqları arasında interkonnektor tikilməsi məsələsini həll etməlidir. Gələcəkdə interkonnektorlardan istifadə etməklə Qazaxıstanın qaz yataqlarının da bu kəmərə qoşulması variantları öyrənilməlidir".




**Hazırda "Transxəzər" məsələsində təkcə Qərb yox, eləcə də qardaş Türkiyə Türkmənistanın müvafiq addımlar atmasını istəyir. Aşqabad bu fonda Türkiyə və Avropa bazarlarına da mavi yanacaq nəqlini nəzərdən keçirir. Bu məqsədlə Avropa Komissiyası, Azərbaycan, Türkiyə və Gürcüstanla "Transxəzər" qaz kəmərinin tikintisi və türkmən qazının "Cənub Qaz Dəhlizi" ilə Avropa ölkələrinə göndərilməsi üzrə danışıqlar aparılır. "Türkmengaz" dövlət konsorsiumunun sədri Mırat Arçayev də vurğulayır ki, artıq ölkəsinin "Cənub Qaz Dəhlizi" layihəsində iştirak imkanı mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Türkmənistan qazını TANAP və TAP layihələri vasitəsilə Avropa bazarlarına çatdırmağa imkan verəcək "Transxəzər" kəməri layihəsi gündəmdən çıxarılmayıb.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Ermənilərin təxribatı və hərbçimizi öldürməsi münaqişənin güc yolu ilə həll ehtimalını artırdı

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə ümidlərin çoxaldığı bir vaxtda erməni tərəfinin cəbhədə təxribatlarının yenidən artması konfliktin güc yolu ilə çözüm ehtimalını yenidən gücləndirir. Ən azı o baxımdan ki, son hərəkətləri ilə ermənilər hələ də güvəniləsi tərəf olmadıqlarını bir daha təsdiqləmiş olurlar. Məhz bu da problemin hərbi həllinin aktuallığını qoruyub saxlamasına gətirib çıxarır.**

Əslində, münaqişənin güc vasitəsilə həlli ehtimalının yüksək olmasını ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona son səfərlərindən sonra yaydıqları bəyanatdan da sezmək mümkündür. Xatırladaq ki, bəyanatda həmsədrlər səfərin əsas məqsədi kimi tərəflər arasındakı təmas xəttində və dövlət sərhədində mövcud vəziyyətin qiymətləndirilməsini, habelə Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri arasında martın 29-da, xarici işlər nazirləri səviyyəsində isə aprelin 15-də aparılan müzakirələri davam etdirməyi göstəriblər. Bəyanatda, həmçinin, təmas xəttindəki son insan tələfatından dərin narahatlıq ifadə olunub, tərəflər gərginliyin daha da artmaması naminə maksimum təmkinli olmağa çağırılıb. Amma aydındır ki, erməni tərəfinin davam edən cəbhə təxribatları təmas xəttindəki insidentlərin hər an genişmiqyaslı silahlı qarşıdurmaya gətirib çıxarmasını istisna etmir. Bunu Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin Ağdam rayonu istiqamətində düşmən silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması və snayperdən açılan atəş nəticəsində Azərbaycan ordusunun hərbi qulluqçusunun şəhid olmasına Bakının reaksiyası da təsdiqləyir. Məsələ barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir: "Xüsusilə qeyd etmək istərdik ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə səfəri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qanlı əməl təxribat xarakteri daşıyır və münaqişənin həlli üzrə aparılan danışıqları pozmaq məqsədinə xidmət edir. İşğalçı Ermənistan rəhbərliyinin sözdə münaqişənin həlli üzrə sülh şəraitinin yaradılması bəyanatlarının real və praktiki addımlarla müşayiət olunmadığını, əksinə, Ermənistanın təxribatçı fəaliyyəti ilə sülh danışıqlarına xələl gətirmək niyyətini açıq şəkildə nümayiş etdirən bu qanlı əməl qəti qəbuledilməzdir və danışıqlar prosesinə zərbə vurur. Törədilmiş qanlı cinayətin bütün mümkün mənfi nəticələrinə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərindədir". Bununla Bakı bir daha bəyan edir ki, cəbhə insidentləri nəticəsində müharibənin yenidən alovlanmasına görə bütün məsuliyyət məhz erməni tərəfinin üzərinə düşür.

Məsələnin maraqlı tərəflərindən biri isə budur ki, erməni tərəfi savaş yenidən başlanacağı təqdirdə cəbhədə böyük məğlubiyyətə düçar olacağını yaxşı bilir. Belə olan halda düşmənin təxribatlara əl atmasının səbəbləri barədə isə müxtəlif fikirlər səslənir. Məsələn, elə erməni mediasında qeyd olunur ki, baş nazir Nikol Paşinyan işğal altındakı əraziləri dinc yolla qaytarmağa cəsarət etmədiyindən, Azərbaycanı savaşa təhrik edir ki, bu vasitə ilə torpaqların bir qismini Bakının nəzarətinə verməyə çalışır. Belə olan halda Paşinyana müxalif qüvvələr onu Azərbaycana güzəştə getməkdə ittiham edə bilməyəcək. Digər tərəfdən belə bir məqama da diqqət yetirilir ki, cəbhədə vəziyyətin gərginləşməsi Paşinyana həm də ona görə sərf edir ki, bu halda o, cəmiyyətin diqqətini daxili sosial-iqtisadi problemlərdən yayındıra biləcək. Xatırladaq ki, bu taktikadan Paşinyanın sələfləri çox istifadə edib. Amma istənilən halda, savaşın başlaması Azərbaycanın düşmənə kifayət qədər sərt zərbələr vurmasına gətirib çıxaracaq. Bunu Ermənistan parlamentinin sabiq deputatı, "Akunk" siyasi araşdırmalar mərkəzinin rəhbəri, politoloq Ruben Hakobyan da təsdiq edir. O bildirir ki, cəbhədə gərginləşən vəziyyət fonunda Azərbaycan gizlətmədən müharibəyə hazırlaşır: "Belə vəziyyətdə Paşinyan Qarabağda xəyanətkar müharibəyə təşviq edənlər və bəzi rayonların Azərbaycana qaytarılması haqqında çox uzaqgedən və təhlükəli niyyəti olan təxribatçı bəyanatlar verir. "Kommersant" qəzetinə Azərbaycan Xarici işlər naziri Elmar Məmmədyarov Paşinyandan müsbət gözləntilərinin olduğu və keçmişdə kilərə qarşı naməlum inkaredici münasibəti barədə müsahibə verir. İnqilabçı ictimai şəkildə "Qarabağ rəhbəri"nin başını əzməyə hazır olduğunu bildirir. Azərbaycan bu durumda sərhəd boyu fasiləsiz təlimlər keçirir. Rəqib gizlətmir və gizlətmədən müharibəyə hazırlaşır. Bu durumda müharibə Ermənistana çox baha başa gələcək. Bunu yaddan çıxarmaq lazım deyil".

Hakopyan onu da qeyd edib ki, müharibə ehtimalı erməni ordusunda tənəzzülün daha da dərinləşdiyi bir vaxta təsadüf edir. Bu fakt erməni mediasının da diqqətindən yayınmır. Qeyd edilir ki, ölkədə hakimiyyət dəyişikliyinə baxmayaraq, orduda acınacaqlı vəziyyət daha da kəskinləşib, xüsusən də şəxsi heyət çatışmazlığı özünü getdikcə daha qabarıq şəkildə büruzə verir. Elə bu səbəbdən iş o yerə çatıb ki, erməni ordusunda çağırış üçün yaş həddini yenidən qaldırmağı düşünürlər. Belə ki, Ermənistan parlamentində hərbi xidmət və hərbi qulluqçuların statusu haqqında qanunda dəyişiklər edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı bəzi dəqiqləşdirmələr aparılacağına dair məlumat verilib. Ermənistan müdafiə nazirinin müavini Qabriel Balayan ölkə parlamentində müzakirə olunan hərbi qanunvericilik layihəsi çərçivəsində bəzi dəyişikliklər ediləcəyi barədə verdiyi açıqlamada bildirib ki, müqaviləli xidmət hərbi qulluqçularının xidmət müddəti barədə məlumatlarda dəqiqləşdirmələr aparılıb: "Keçmişdə qüvvədə olan müqaviləli hərbi qulluqçuların hərbi xidmətə qəbul yaş həddi 36-dan 46 yaşa artırılmaqla bərpa edilir. Müharibə dövründə ştatlara təhkim edilmiş vətəndaşların ştat üzrə nəzərdə tutulmuş öhdəlikləri üzrə cəlb edilməsi müddəti əvvəlki 3 ay əvəzinə 1 il müəyyən edilir. Çağırışçı yaş həddinin qaldırılması da təklif olunur". Qeyd edək ki, Azərbaycanla silahlanma yarışında ayaqlaşa bilməyən Ermənistan ordusunu şəxsi heyətlə təmin etmək getdikcə daha müşkül məsələyə çevrilir. Bu sahədə düşmən daha acınacaqlı vəziyyətə düşməkdədir. Orduda baş verən ölümlər, münasibətlərin pozulması, intihara məcbur etmə və digər hadisələr bir daha sübut edir ki, Ermənistan ordusu nəinki Azərbaycan Silahlı Qüvvələri ilə döyüş aparmaq, hətta öz ölkəsini qorumaq üçün kifayət qədər gücə sahib deyil. Rəsmi məlumatlara əsasən, altmış min nəfərlik orduya malik Ermənistanda həqiqi hərbi xidmətə çağırış yaşı 18-27 yaş, orduda xidmət müddəti isə 2 ildir. Hərbi xidmətə çağırış ildə iki dəfə olmaqla 6 aydan bir həyata keçirilir. Erməni mediasında yer alan məlumatlara görə, 2004-cü ildən başlayaraq, demək olar ki, hər il Ermənistanda çağırış zamanı hərbi hissələrin çağırışçılarla tam şəkildə komplektləşdirilməməsi ciddi problem olaraq ortaya çıxır. Nəticə etibarı ilə hərbi xidmətdən tərxis olunanların evə buraxılması bəzi hallarda aylarla ləngiyir. Bununla da daha çox döyüş bölgəsində yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər üzləşir. Nəticədə səngərdə xidmətdən yorulan əsgərlər tərəfindən gənc əsgərlərə qarşı amansız rəftarların edilməsi, atəşkəs pozuntuları zamanı "evə getməyə hazırlaşan" əsgərlərin həlak olması kimi hadisələr yaşanır. Yeri gəlmişkən qeyd edək ki, bu xüsusda insidentlər düzgün araşdırılmır və buna görə ölən erməni hərbi qulluqçuların anaları erməni hakimiyyət orqanlarını orduda baş verən hadisələrin obyektiv araşdırılması üçün verdikləri vədlərə əməl etmədiklərindən yenidən etiraz aksiyasına başlayıblar. Hökumət binası qarşısında toplaşan etirazçılar ədalətli istintaq aparılmasını, övladlarının ölüm səbəblərinin əsl mahiyyətinin üzə çıxarılmasını və günahkarların məsuliyyətə cəlb edilməsini tələb edir. Onların fikrincə, istintaqın aparılmasına vaxtilə valideynlərin ittiham etdiyi eyni müstəntiqlər cəlb edilib. Qeyd edək ki, valideynlər bu xüsusda bir neçə dəfə Nikol Paşinyanla görüşüb və onları narahat edən problemləri diqqətə çatdırıblar. Amma məlum olur ki, artıq bunun da xeyri yoxdur. Elə bu səbəbdən valideynlər heç bir vədlərə əməl edilməməsindən şikayətlənirlər. Əsgər valideynləri iddia edirlər ki, oğlanları hərbi xidmət zamanı hansısa bədbəxt hadisələrdən həlak olmur, sadəcə olaraq, onları qətlə yetirirlər. Başqa sözlə, orduda acınacaqlı vəziyyət davam edir. Bu fonda Ermənistan ordusundakı döyüş itkiləri hər vəchlə əvvəlki kimi ictimaiyyətdən gizlədilməkdədir. Cəbhədə aparılan atəşkəs monitorinqləri və əsgər ölümləri ilə bağlı yeni araşdırmalar bunu bir daha sübut edir. Belə ki, Ermənistandan olan əsgərlərin ölüm faktı adətən silahla ehtiyatsız davranış, nizamnamədənkənar hallar, avtoqəza, xəstəlikdən ölüm və sairlə ört-basdır olunur. Məsələn, cəbhədə görüntülərlə, yer və vaxt göstərilməklə erməni ordusunun canlı qüvvəsinin məhv edilməsi barədə Azərbaycanın Müdafiə Nazirliyinin məlumatlarından bir neçə gün sonra Ermənistan tərəfinin avtoqəza, silahla ehtiyatsız davranışdan həlak olma barədə məlumatları açıqlamasına dəfələrlə rastlaşılıb. Ordunun digər istiqamətlər üzrə təminatında da böyük problemlər yaşanır. Korrupsiya, hərbi əmlakın talan edilərək ucuz qiymətə satılması və bu qəbildən olan digər mənfi tendensiyaların miqyası çoxalmaqdadır.

Hərbi xidmətə çağırılan hərbi qulluqçuların sağlamlıqlarına son dərəcə biganə yanaşılması, tibbi ləvazimat, hospital çatışmazlığı da davam etməkdədir. Araşdırmalar göstərir ki, bir sıra çağırışçıların səhhətində ciddi qüsurlar, hətta bəzilərinin ciddi psixi problemləri olsa belə, onlar ordu sıralarına çağırılmaqda davam edir. Məhz bu şəraitdə savaşın yenidən alovlanması düşmən ordusunun qısa müddətdə darmadağın olmasını qaçılmaz edir. Ona görə də cəbhə təxribatları düşmənə çox baha başa gələ bilər və bunu qarşı tərəf özü də yaxşı bilir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Avropa Liqasının finalı ətrafında ermənilərin yaratdıqları şou deyəsən özlərinə ziyan edəcək. Artıq məlum olub ki, Azərbaycanın və UEFA-nın təhlükəsizliklə bağlı ən yüksək səviyyədə təminat verməsinə rağmən, erməni futbolçunun "Arsenal" üçün böyük önəm daşıyan matça gəlməkdən boyun qaçırması klubda ciddi narazılığa səbəb olub.**

# Mxitaryan İngiltərə məhkəməsində müqaviləni pozduğuna görə cərimələnə bilər



***Ceyhun Məmmədov:** "Ermənilərin fəxr etdikləri bu oyunçu siyasi şoularda rol almaqla öz futbol karyerasının üstündən birdəfəlik xətt çəkmiş oldu"*

London təmsilçisinin rəhbərliyi Mxitaryanın təxribatçı davranışını müqavilə şərtlərinə əməl etməmək kimi qiymətləndirib. Klub yay fasiləsində onu "satacağını" açıqlayıb. Başqa sözlə, Mxitaryan özünün və ailəsinin qərarı ilə Bakıya gəlməkdən boyun qaçırdığı üçün "satışa çıxarılacaq". Bundan başqa, yaxın günlərdə Mxitaryanın məsələsi ilə bağlı Londonda idman hüquqşünaslarının toplantısı planlaşdırılıb. İclasda Ermənistan yığmasının üzvünün müqaviləyə riayət etməməsi müzakirə olunacaq.

Həmçinin, İngiltərə klublarına siyasi qalmaqallarda iştirak edən futbolçuların transfer edilməməsi tövsiyə olunacaq. Məhz qeyd edilənlər erməni lobbisinin və Ermənistanın Azərbaycana qarşı piarının iflasa uğradığını göstərir. Mxitaryanla bağlı məsələ hansı sonucla yekunlaşa bilər?

**İdman şərhçisi Ceyhun Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "Arsenal" səhvini indi anlamağa başlayıb:** "Artıq oyunun nəticəsindən sonra da gördülər ki, Mxitaryan klubun başını əməlli cəncələ salıb. Hətta tam olaraq sübut olundu ki, "Arsenal"ın böyük məğlubiyyətlə uduzması da sırf oyunqabağı siyasi qalmaqaldan qopan ağır psixoloji faktorla bağlı olub. İngilislər də dərk etdilər ki, Mxitaryanın yaratdığı şou heç də təhlükəsizliklə bağlı olmayıb.

Qeyd edək ki, Mxitaryan "Arsenal"ın Premyer Liqadakı oyunlarında müntəzəm çıxış etmir. Bununla da ona bəslənən ümidləri doğrultmayan futbolçu çox vaxt ehtiyatda saxlanır. Son matçlarda müşahidə edilən məqamlar da "Arsenal" rəhbərliyinin haqlı olduğunu düşünməyə əsas verir. Belə ki, futbolçu ona olan inamı doğrultmur. Məhz bu səbəbdən də bir çox matçı ehtiyat oyunçular skamyasında keçirir. Bu isə "Arsenal" rəhbərliyinin haqlı narahatlığına səbəb olub.

**Bu yerdə bir xatırlatma etsək pis olmaz. "Henrix Mxitaryan Premyer Liqada çıxış etməyə başladığı 2016-cı ildən bəri ortaya yaxşı oyun qoya bilmir. Üç il əvvəl "Borussiya Dortmund"dan "Mançester Yunayted" klubuna transfer edilən erməni yarımmüdafiəçi burada ümidləri doğrultmadığından, ötən il "Arsenal"a "satılıb".**

Yəqin ki, yaranmış vəziyyət Mxitaryanın yalnız tarnsferlə canını qurtara bilməyəcəyini diqtə edir. Artıq hüquqşünaslar da Mxitaryanın qanunu pozduğuna əmindirlər. Təsadüfi deyil ki, onun məsələsi müzakirəyə çıxarılacaq.

**Proseslərin gedişi göstərir ki, bununla da Mxitaryan müqavilə şərtlərini pozduğuna görə külli miqdarda cərimə oluna bilər. Hesab edirəm ki, ermənilərin fəxr etdikləri bu oyunçu siyasi şoularda rol almaqla öz futbol karyerasının üstündən birdəfəlik xətt çəkmiş oldu".**

***Məhəmmədəli QƏRİBLİ***

# 21 ərəb ölkəsi İrana qarşı ABŞ-ın yanında yer aldı - "ABŞ-ın İrana qarşı bütün addımlarını dəstəkləyirik"



*ABŞ Ərəb Əmirliklərində gəmilərə hücumun arxasında İranın olduğuna dair dəlilləri BMT TŞ-yə təqdim edəcək*

**ABŞ-la İran arasında gərginliyin artdığı bir vaxtda 21 ərəb ölkəsi lideri Səudiyyə Ərəbistanının Məkkə şəhərində bir araya gəlib. Hətta iki ildir Riyadın təcrid etdiyi Qətər də zirvəyə dəvət edilib.**

Baki-xeber.com xəbər verir ki, gözlənildiyi kimi, 21 ərəb ölkəsinin toplantısının əsas gündəmi İran olub.

Səudiyyə Ərəbistanı kralı Salman Körfəz Əməkdaşlıq Şurası zirvəsinin açılışında İranın qarşısını almaq üçün beynəlxalq təzyiqi artırmağı tələb edib. Kral Salman beynəlxalq ictimaiyyəti Tehranın hərəkətlərinə qarşı bütün yollara əl atmağa çağırıb.

İraq prezidenti Berhem Saleh isə mövcud böhranın müharibəyə çevrilə biləcəyilə bağlı xəbərdarlıq edib. Saleh İranla 1400 km paylaşdıqlarını deyib: "Bölgəni alov yerinə çevirəcək müharibənin əlamətlərini daşıyan, regional bir böhran yaşayırıq...", - Saleh deyib.

Zirvənin yekun bəyannaməsində də İran hədəf alınır. Bəyannamədə Fələstin məsələsindən çox İran və regiondakı gərginliyə yer verilib.

Bəyanatda İran istehsalı ballistik raketlərin Yəməndən Səudiyyə Ərəbistanına atılması, İranın Birləşmiş Ərəb Əmrliklərinin (BƏƏ) adalarını işğal etməsi (Böyük Tunb, Kiçik Tunb və Əbu Musa adaları), Suriya böhranına müdaxilə etməsi və ərazi bütövlüyünü təhdid etməsi, Bəhreynin daxili işlərinə qarışması və oradakı terror təşkilatlarını dəstəkləməsi qınanır.



Bundan başqa, zirvədə iştirak edən ölkələr ABŞ-ın İrana qarşı bütün addımlarını dəstəklədiyini bəyan edib. Tehran isə sammitdəki ittihamlara dərhal reaksiya verib. Rəsmi bəyanatda, əsassız ittihamlarla, Səudiyyənin ABŞ və İsrailin İrana qarşı ümidsiz cəhdlərinə şərik olduğu deyilir.

Bu arada, Ağ Evin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Birləşmiş Ərəb Əmirliklərinin Fuceyra limanı yaxınlığında 13 mayda 4 ticarət gəmisinə qarşı hücumun arxasında İranın olduğuna dair dəlillərin BMT Təhlükəsizlik Şurasına təqdim ediləcəyini deyib.

"Birləşmiş Ərəb Əmirlikləri sahilində gəmilərə edilən hücumların arxasında İranın olduğuna dair sübutlar BMT Təhlükəsizlik Şurasına təqdim ediləcək" - Bolton deyib.

ABŞ-ın bölgəyə əlavə hərbi qüvvə göndərməsi və vəziyyətə sürətli şəkildə müdaxilə etməsinin İranın bu hərəkətindən daşınmasına dəstək olduğunu deyən Bolton, İranın ABŞ qüvvələrini hədəfə almasının "ciddi səhv" olacağını, belə bir addımın da müzakirə istəyilə üst-üstə düşməyəcəyini ifadə edib.

**Azərbaycana xaricdən mal gətirən iş adamlarının üzləşdikləri problemlər hələ də öz həllini tapmayıb. Bununla bağlı bir qrup sahibkar adından Azərbaycan Respublikası Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə açıq məktub ünvanlanıb. Müraciətdə bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan xalqının mənafeyi üçün imzaladığı fərmana əsasən, sahibkarlar xarici ölkələrdən idxal etdikləri malların gömrük rüsumlarını öz və ya öz firmaları adına ödəməli idi.**

# Azərbaycana mal gətirən iş adamlarının "karqo problemi"...




Yəni bununla karqo sistemindəki neqativliklərin ləğv olunması nəzərdə tutulurdu: "Eyni firmadan mal alan sahibkar öz adına malı gətirdiyi zaman gömrük rüsumu yüksək olur, amma karqo ilə gətirdikdə isə ucuz başa gəlir. Bunun səbəbi ondadır ki, sahibkar məhsulu öz və ya firması adına gətirdikdə rəsmi faktura ilə gətirir. Karqolar isə fakturaları və məhsul kodlarını dəyişdirərək gətirir.

Bununla da bazarda haqsız rəqabət yaranır. Belə ki, rəsmi şəkildə malı idxal edən sahibkar karqo ilə malı idxal edən sahibkardan baha satdığı üçün haqsız rəqabət yaranmış olur. Həmçinin, bu vəziyyətin yaranması ilə həm sahibkarlar, həm də karqolar vergidən yayınmış olurlar.

Ümumiyyətlə, dünya təcrübəsində karqo şirkətləri yalnız malın daşınması üçün göstərdikləri xidmət haqqını alırdılar. Malların gömrük rəsmiləşdirilməsini sahibkarların özü və ya öz firmaları həyata keçirməlidirlər. Bizdə isə karqo şirkətləri saxta şirkətlər açaraq malları öz adlarına rəsmiləşdirir və vergi fakturasını dəyişərək ölkəyə idxal edirlər. Hətta onlar malın gömrük fakturasını dəyişdirməklə yanaşı, malın gömrük kodlarını da dəyişirlər. Nəyə görə bizi karqoların qucağına atdılar? Eyni yerdən, eyni malı alan iş adamı karqo ilə daşıdığı zaman daha ucuz olur, özü gətirdikdə baha.

Konkret olaraq bildiririk ki, karqo şirkətləri bir tırın içərisinə 20-30 iş adamının idxal etdiyi malı yükləyib, 5-6 fiziki şəxs adına gömrük fakturası ilə Azərbaycana idxal edirlər. Nəticədə dövlətimizin büdcəsinə az vergi ödənir, haqsız rəqabət yaranır. Sizdən xahiş edirik ki, karqo şirkətlərinə nəzarəti gücləndirəsiniz və onların yalnız malları daşınması ilə məşğul olmalarını və gömrük işlərindən kənarda qalmalarını təmin edəsiniz".

Əslində, təsvir edilən mənzərəyə inansaq, onda bununla Azərbaycanın dövlət büdcəsinə vergidən yayınmaqla xeyli miqdarda ziyan vurulur. Səslənən ittihamlarla bağlı Dövlət Gömrük Komitəsinin mövqeyini öyrənmək istədik. Qurumun mətbuat xidmətindən bizə bildirildi ki, bu məsələdə konkret olaraq gömrüyə aid nəsə olmadığı üçün şərh verə bilməzlər: "Dediyiniz şikayət konkret olaraq karqo ilə sahibkarlar arasında olan münasibətdən qaynaqlanır".

İqtisadçı Elşən Əliyev isə qəzetimizə bildirdi ki, vəziyyət bizim dediyimiz kimidirsə, onda həmin sahibkarların özləri də məsuliyyət daşıyırlar: "Çünki bilə-bilə karqo rəhbərləri ilə qanunsuz sövdələşməyə gedirlər. Yaxşı olardı ki, həmin sahibkarlar şikayətlərini bir qədər konkret formada edərdilər. Söhbətin hansı mallardan, hansı karqolardan getdiyini bildirəydilər. Azərbaycana xaricdən mal gətirən, həmin malı rəsmiləşdirən iş adamları müvafiq qanunlara uyğun şəkildə hərəkət etməlidirlər. Kimsə daha az vergi və ya gömrük rüsumu ödəmək üçün karqo rəhbərləri ilə qanunsuz sövdələşməyə gedirsə, bunun günahı və məsuliyyəti həmin adamların öz üzərinə düşür. Hansısa malların kodunun dəyişdirilməsi, saxta fakturaların tərtibatı isə cinayət əməli sayılır. Hesab edirəm ki, vergi və gömrük orqanlarımız bu cür hallarla bağlı ciddi mübarizə aparırlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Bu gün çoxlu sayda gənc təhsil almaq üçün xaricə yollanır. Bakalavr və ya magistr təhsili almaq istəyənlərin bir qismi xarici təhsilə üstünlük verir. Onlar əsasən Ukrayna, Rusiya və bir sıra Avropa ölkələrində mövcud olan ali təhsil ocaqlarının diplomunu almaqda maraqlıdırlar. Həmin gənclər müəyyən yollarla diplomu əldə edirlər.**

# Təhsil Nazirliyi xaricdən gətirilən diplomların arasında saxtalıqları yenidən gündəmə gətirdi...

## *Kamran Əsədov: "Bəzən xaricdə təhsil alan azərbaycanlı gənc heç universitetin yerləşdiyi binanı, müəllimləri tanımır"*




*"...onların aldığı diplomun qanuni olub-olmaması sual doğurur"*

Qeyd edək ki, əvvəllər "xaricdə təhsil" deyəndə ağlımıza xarici dil bilən və illərini oxumağa verən insanlar gəlirdisə, indi vəziyyət dəyişib. İnsanlar zəhmət çəkmədən xarici ölkədə mövcud olan təhsil ocaqlarının diplomuna sahib olurlar. Ancaq xaricdə təhsil alanların bəziləri təhsil aldığı ölkənin dilini bilmirlər. Maraqlıdır, dörd il təhsil aldığı ölkənin dilini bilmir, amma diplom alır.

Hətta bu problemlə bağlı Təhsil Nazirliyinin nümayəndəsi də öz narahatlığını dilə gətirib. Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin rəisi vəzifəsini icra edən və təhsil nazirinin müşaviri Həsən Həsənli media nümayəndələrinə açıqlamasında bildirib ki, son illər xaricdə təhsil alan gənclərin sayı artır: "Bəzən xaricdə təhsillə bağlı müəyyən sui-istifadə halları da olur. Burada söhbət saxta sənədlərdən, hansı keyfiyyətli təhsil almaqlarından yox, bərabər və ədalətli rəqabətin dəstəklənməsindən gedir. Bəzən elə halların şahidi oluruq ki, bəziləri ölkədən çıxmadan həkimlik dərəcələri alır, yaxud dörd il təhsil aldığı ölkənin dilini bilmir. Təbii ki, belə şəxslərin sənədləri saxtadır. Gələcək həkimlər, müəllimlər, mühəndislər sağlam və keyfiyyətli iqtisadiyyatın formalaşmasında xüsusi rol oynamalıdırlar. Əmin olmaq lazımdır ki, bu işlərdə bərabərlik prinsiplərinə ciddi əməl olunur. Bu gün ictimaiyyətdə işəgötürən diploma, sertifikata yox, biliyə, bacarığa, səriştəyə diqqət göstərilir. Valideynlər, gənclər diqqətli olmalıdırlar ki, təhsil aldıqları müəssisənin diplomları həmin ölkədə tanınırmı?".

**Məsələ ilə bağlı fikir bildirən təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün gənclərin xarici ölkələrdə təhsil alması məsələsi geniş miqyas alıb.** Bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da gənclər xaricdə təhsil almağa can atırlar. Lakin təhsil üçün xarici ölkələrə üz tutan və oxuduqdan sonra diplom ala bilməyənlər də var. Həmin şəxslər, sadəcə, təhsil aldıqlarını sübut edən arayışla geri dönürlər: "Xaricə gedənlərin bir qisminin məqsədi peşəkar kadr kimi formalaşmaq olsa da, digərləri sırf diplom üçün ora yollanırlar".

Həmsöhbətimizin sözlərinə görə, dövlət hesabına deyil, öz vəsaiti hesabına xaricdə təhsil alanların bir qisminin dil bilməməsi problemi ilə yanaşı, onların aldığı diplomun qanuni olub-olmaması sual doğurur. Universitet həmin diploma tələbəyə doğrudanmı verib? Bu gün xaricdə təhsil alan tələbələrin diplomu əksər hallarda tanınmır".

K.Əsədov onu da vurğuladı ki, bəzən xaricdə təhsil alan azərbaycanlı gənc heç universitetin yerləşdiyi binanı, müəllimləri tanımır. Poçt vasitəsilə pul ödəyirlər və bu yolla diplom əldə edirlər. Bu gün Azərbaycanda belə hallar çoxdur.

***Günel CƏLİLOVA***

**Azərbaycanda daha bir tarixi hadisə yaşandı. Mayın 29-da paytaxt Bakı dünyanın ən nüfuzlu idman yarışlarından olan UEFA Avropa Liqasının final oyununa evsahibliyi etdi. Həmin gün dünyanın idman ictimaiyyətinin diqqəti Bakıya yönəlmişdi, milyonlarla insan finalı gözləyirdi.**

# Avroliqanın futbol finalında Bakıya 60 mindən çox xarici gəlib...



***Nahid Bağırov:** "Final qarşılaşması zamanı ölkəmizə gələn turistlər sayəsində yüksək gəlir əldə etmək mümkün oldu"*

***Elçin Rüstəmov:** "Avroliqanın futbol finalını izləmək üçün ölkəmizə 60 min əcnəbinin gəlməsi turizmin inkişafına böyük təkan verdi"*

Nəhayət, çempionluq uğrunda mübarizə aparan London klublarının - "Arsenal"la "Çelsi"nin oyunu gözlənildiyindən də möhtəşəm alındı və Azərbaycan yenidən bütün dünyaya sübut etdi ki, istənilən nüfuzlu tədbiri ən yüksək səviyyədə keçirmək iqtidarındadır.

Möhtəşəm oyunu izləmək üçün ölkəmizə dünyanın dörd bir yanından izləyici gəlmişdi. "Azərbaycan Hava Yolları"nın (AZAL) yaydığı məlumatda qeyd olunur ki, bütün mülki aviasiya strukturları UEFA Avropa Liqasının finalının keçirildiyi dövrdə ölkəyə gələn qonaqlara və idmançılara yüksək səviyyəli xidmət göstərilməsini təmin ediblər. Heydər Əliyev Beynəlxalq Aeroportu 2019-cu il may ayının 27-dən 30-dək, ümumilikdə, təxminən 600 reysə xidmət göstərib. Onlardan 57-si çarter reysləri, 10-u isə "FlyDubai", "AirArabia", "SCAT", "IsrAir", "Jazeera" və s. kimi aviaşirkətlərin ələvə müntəzəm uçuşlarının payına düşüb.

Açıqlanan statistik rəqəmlərdə qeyd olunur ki, Azərbaycanın əsas hava limanının sərnişin axını Bakıda Avropa Liqası finalının keçirildiyi dövrdə, ümumilikdə, təxminən 60 min nəfər təşkil edib.

Sərnişin axını və uçuşeniş əməliyyatları üzrə hava limanının infrastrukturunda yüklənmənin pik vaxtı 30 may tarixində müşahidə edilib. Gün ərzində Heydər Əliyev Beynəlxalq Aeroportu 164 reysə və 18 mindən çox sərnişinə xidmət göstərib.

Qeyd olunur ki, paytaxtın hava limanından mayın 30-da rekord sayda - 100-dən çox təyyarə uçuşu həyata keçirilib. Reyslərin çoxu London-Bakı-London marşrutu üzrə həyata keçirilib. Həmçinin, Frankfurt, Vyana, Buxarest, Madrid, Nitsa, Afina, Stokholm, Doha və bir sıra digər şəhərlərdən nümayəndə heyətləri, pərəstişkarlar və azarkeşlər gəliblər.

Ekspertlər Avroliqanın futbol finalı zamanı ölkəmizə 60 min turistin gəlməsinin gözlənilən olduğunu bildirirlər.

**Azərbaycan Turizm Assosiasiyasının (AzTA) rəhbəri Nahid Bağırov bildirdi ki, oyunu izləmək üçün ölkəmizə minlərlə turist gəlmişdi:** "Final oyunundan bir neçə gün əvvəl belə otellər bron edilmişdi. Deməli olar ki, mayın 28-30-da Bakı şəhərində yerləşən otellərdə yer tapmaq qeyri-mümkün idi. Dünya praktikasında elədir ki, futbolu başqa şəhərdə izləmək üçün sıravi adam gələ bilmir. Çünki otelin qiyməti 3-4 dəfə baha olur. Bura gələn azarkeşlər orta və daha yüksək təbəqədir. Sevindirici haldır ki, möhtəşəm bir gün ölkəmizdə reallaşdı".

N.Bağırov onu da əlavə etdi ki, final qarşılaşması zamanı ölkəmizə gələn turistlər sayəsində yüksək gəlir əldə etmək mümkün oldu: "Aviabilet, qalmaq daxil olmaqla, bu səfər bir turistə minimum 1000 dollara başa gəldi. Bu rəqəmi ölkəmizə gələn turist sayına vurduqda gəlirlərin xeyli olacağını demək olar. Nəzərə almaq lazımdır ki, bu turistlər futbol fanatıdırlar və çılğındırlar. Onlar kədərlənə və sevinə bilərlər".

**Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, möhtəşəm idman oyunlarının ölkəmizdə keçirilməsi əhəmiyyətlidir.** Bu cür idman oyunları sayəsində həm ölkəmiz beynəlxalq arenada tanınır, həm də çoxlu sayda turist gəlir: "Arsenal"la "Çelsi"nin qarşılaşması, eyni zamanda, Azərbaycanın turizm potensialının inkişafında da xüsusi rol oynadı. Bu oyun sayəsində Bakıya gələnlərin, şəhərimizi, ölkəmizi tanıyanların sayı artdı. Nəzərə almaq lazımdır ki, turistlərin böyük əksəriyyəti Bakıya ilk dəfə gəlirdi. Onlar gördülər ki, Bakı necə gözəl, necə inkişaf etmiş və təhlükəsiz şəhərdir. İstənilən beynəlxalq tədbir, həmçinin, idman yarışı yeni dostların qazanılması deməkdir".

Həmsöhbətimiz onu da vurğuladı ki, ölkəmizə təşrif buyuran turistlər ölkənin adət-ənənələri ilə tanış oldular, gəzməli-görməli yerlərinə baş çəkdilər: "Bu günlərdə ölkəmizə 60 min əcnəbinin gəlməsi turizmin inkişafına böyük təkan verdi. Sırf oyunu izləmək üçün 60 min turistin ölkəmizə gəlməsi ölkə iqtisadiyyatına daxil olacaq valyutanın artmasına səbəb olacaq". Ekspert hesab edir ki, ölkəmizə gələcək turistlərin sayı daha da artacaq: "Artıq Azərbaycan xaricilər üçün turizm baxımından əlverişli ölkə kimi xatırlanacaq. Əcnəbilər istirahət üçün ölkəmizə üz tutacaqlar".

***Günel CƏLİLOVA***

---

**İnsan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi, bu zaman keyfiyyətli hüquqi yardımın göstərilməsində, hüququn aliliyinin təmin olunmasında vəkillik institutunun müstəsna əhəmiyyəti var. Azərbaycan üçün də davam edən dövlət quruculuğu və bunun tərkib hissəsi kimi hüquqi islahatlar çərçivəsində vəkillik institutunun inkişafı problemləri aktualdır.**

# Bölgələrimizdə "vəkil böhranı" - elə rayonlar var ki, cəmi 1 vəkil...



*"Prokurorluq, ibtidai istintaq və məhkəmə sistemində 5 ildən çox təcrübəsi olanlar vəkilliyə..."*

***Əli İsaoğlu:** "Bölgələrdə vəkillik peşəsi ilə məşğul olanların sayının az olması gördükləri işin müqabilində böyük qazanc əldə edə bilməməsi ilə bağlıdır"*

Vəkillik institutunun inkişafı ilə bağlı postsovet məkanı ölkələri üçün xarakterik olan problemlər Azərbaycanda müşahidə olunur. Şübhəsiz, sırf Azərbaycana aid obyektiv və subyektiv amillərlə bağlı özünəxas problemlər və çətinliklər də mövcuddur.

Vəkillik institutu ilə bağlı Azərbaycanda ilk diqqətçəkən məqam ölkədə vəkillərin sayının az olmasıdır. KİV-də zaman-zaman bu problemə diqqət ayrılıb, məsələnin müxtəlif aspektləri işıqlandırılıb.

Bu günlərdə bu məsələyə yenidən toxunulub. Azərbaycanın Birinci vitseprezidentinin köməkçisi Gündüz Kərimov "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" konfransında çıxışı zamanı bildirib ki, Azərbaycanda vəkillərin sayı elə də çox deyil. O qeyd edib ki, son ilyarım ərzində vəkillərin sayı 800 nəfərdən 1500-ə qədər artıb: "Bu, çox yaxşı haldır. Lakin qanunvericiliyə qoyulmuş, xüsusilə də nümayəndəlik institutu ilə bağlı məhdudiyyətlər bəzi kateqoriyalı şəxslərin, xüsusilə Bakıdan kənarda yerləşən şəxslərin məhkəməyə müraciət etmək imkanlarına maneələr yaradıb. Bizdə olan məlumata görə, elə rayon var ki, orada 1 vəkil fəaliyyət göstərir. Bu səbəbdən də vəkilliyə qəbul qaydalarının və ixtisas suallarının yüngülləşdirilməsinə ehtiyac var".

**Hüquqşünas Əli İsaoğlu "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, vəkillik fəaliyyəti ilə məşğul olan şəxslər əhaliyə hüquqi xidmət göstərirlər:** "İmtahan suallarının asan və ya çətin olmasının önəmi yoxdur. İmtahan sualları asan olarsa, istənilən şəxs imtahandan keçib vəkilliklə məşğul ola bilər. Belə olan halda isə insanlara keyfiyyətli hüquqi yardım göstərilə bilməz. Əsas odur ki, vəkilliklə məşğul olmaq istəyən şəxs iş təcrübəsinə malik olsun".

Həmsöhbətimiz onu da vurğuladı ki, bir çox qurumlarda, o cümlədən, gömrük xidməti və vergi orqanlarına işə qəbul zamanı 5 ildən çox iş təcrübəsi olanlar imtahanın birinci mərhələsi sayılan test imtahanından azad olunur. Belə bir qaydanın vəkillik sahəsində də tətbiq olunması yaxşı hal olar: "Belə ki, prokurorluq, ibtidai istintaq və məhkəmə sistemində 5 ildən çox təcrübəsi olanlar test imtahanından azad olunsun. İş təcrübəsi olan vəkilliyə qəbulun ikinci mərhələsi olan müsahibə prosesində iştirak etsin. Nəzərə almaq lazımdır ki, hüquq təhsili alan şəxslər imtahan əsasında məhkəməyə və digər quruma işə giriblər və onlar da yetərincə iş təcrübəsi toplayıblar".

Bölgələrdə vəkillik peşəsi ilə məşğul olanların sayının az olmasına gəlincə, hüquqşünas vurğuladı ki, bunun səbəbi rayonlarda vəkillərin gördükləri işin müqabilində böyük qazanc əldə edə bilməməsidir. Bu üzdən də onlar fəaliyyətlərini davam etdirmək üçün əsasən paytaxt Bakıya və digər iri şəhərlərə üz tuturlar: "Bölgələrdə vəkil sayının artırılması üçün onlara müəyyən güzəştlər tətbiq olunmalıdır. Vəkillər üçün müəyyən edilən üzvlük haqqı azaldılmalı, bununla yanaşı bu sahə ilə məşğul olanlara vergi güzəştləri tətbiq olunmalıdır. Belə olarsa, bölgələrdə çalışan vəkillər elə orada qalıb fəaliyyətlərini davam etdirərlər".

***Günel CƏLİLOVA***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIROV ELÇİN ƏLİ oğlu**



17 iyun 1975-ci ildə Azərbaycan Respublikası Naxçıvan MR-nın Şərur rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Xətai rayonunda yaşamışdır. Xətai RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Elçin Əli oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 6 mart 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Elçin Əli oğlu 6 mart 1994-cü il tarixində Kəlbəcər rayonu ərazisində Murovdağ istiqamətində yerləşən Güzgü yüksəkliyində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Elçin Əli oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV ELŞAD MƏTLƏB oğlu**



4 fevral 1976-cı ildə Azərbaycan Respublikasının Laçın rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Laçın rayon mərkəzində yaşamışdır. Könüllü olaraq özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Bağırov Elşad Mətləb oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 25 mart 1993-cü ildə Qubadlı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Elşad Mətləb oğlu 25 mart 1993-cü il tarixində Qubadlı rayonunun Mərdanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Elşad Mətləb oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV ELŞƏN HƏSƏN oğlu**



1 iyun 1965-ci ildə Azərbaycan Respublikasının Xocalı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Xocalı rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Xocalı özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Bağırov Elşən Həsən oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrin 26 fevral 1992-ci ildə Xocalıya hücumu və şəhərdə törədilən soyqırımı faciəsi zamanı itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Elşən Həsən oğlu 26 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələrinin Xocalıya hücumu və dinc əhaliyə qarşı törədilən soyqırımı faciəsi zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Elşən Həsən oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV ƏHMƏDAĞA ƏMRAH oğlu**

22 noyabr 1964-cü ildə Azərbaycan Respublikasının Qəbələ rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Qəbələ rayon mərkəzində yaşamışdır. Qəbələ RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Əhmədağa Əmrah oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata



keçirilən döyüş əməliyyatları zamanı 2 aprel 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Əhmədağa Əmrah oğlu 2 aprel 1993-cü il tarixində Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Əhmədağa Əmrah oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Təxminən iki il əvvələ qədər Azərbaycanda Həcc ziyarətinə getmək bir dəb halını almışdı. Elə şəxslər vardı ki, bir deyil, bir neçə dəfə Həcc ziyarətinə gedirdilər. Son zamanlar Həcc ziyarətinə gedənlərin sırası seyrəlməyə başlayıb.**

# Azərbaycanda Həccə meyl azalıb, kvota 40 yer azaldıldı, 1400 yer yenə dolmayıb...



***İsmayıl Əhməd:** "Həccə gedənlərin sayının azalması..."*

***Hacı Təyyar Hüseynli:** "Həcc ziyarətinə gedənlərin azalmasını biz insanların iqtisadi durumu ilə də əlaqələndirə bilərik"*

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) verilən məlumata görə, bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1400 nəfərlik kvota qoyulub. Ötən il isə Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1440 nəfərlik kvota qoyulmuşdu.

QMİ-dən bildirilənə görə, Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1000-ə yaxın insan müraciət edib. Qeyd edilənə görə, hazırda sənədlərin qəbul olunması prosesi davam edir. İdarədən bildirilib ki, sənəd qəbulu kvota dolana qədər davam edəcək.

Xatırladaq ki, zəvvarların avqustun 1-dən 6-na qədər Həcc ziyarətinə yola düşmələri, avqustun 21-dən 25-nə qədər isə Azərbaycana dönmələri planlaşdırılır. Zəvvarlar 8 təyyarə reysi ilə yola salınacaq.

Məlumatlara görə, bu il Həcc ziyarətinin qiyməti 4285 ABŞ dolları təşkil edir.

Azərbaycandan Həcc ziyarətinə gedənlərin sayı niyə azalıb?

Dinşünas İsmayıl Əhmədin sözlərinə görə, başqa ölkələrlə müqayisədə Azərbaycana qoyulan kvota daha çoxdur: "Əslində, Azərbaycana qoyulan kvota daha çoxdur. Bu rəqəm 4500-dən tədricən indi göstərilən rəqəmə düşüb. Bunun bir neçə əsas səbəbi var. Ən başlıca səbəb insanlarda maddi imkanın olmamasıdır. Məsələn, mən 500 manat əməkhaqqı alaraq Həcc barədə düşünə də bilmirəm. Bir vaxtlar imkanlı şəxslər onlarla şəxsi göndərirdi, amma indi onlarda da vəziyyət yaxşı deyil. Təxminən 10 il əvvəl sənətçilər arasında Həccə getmək dəb idi, amma indi artıq dəbdən düşüb. Əvvəllər avtobusla iki dəfə ucuz qiymətə getmək olurdu, lakin indi yalnız təyyarə ilə getmək lazımdır. Yəni Həccə gedənlərin sayının azalması bu kimi bir sıra səbəblərlə bağlıdır".

Dinşünas Hacı Təyyar Hüseynli bizimlə söhbətində bildirdi ki, Həcc ziyarətinə getmək nəinki dünyada yaşayan müsəlmanların, hətta qeyri-müsəlmanların da arzusudur. "İldə bir dəfə milyonların bir şəhərə axışıb getməsi, birgə Həcc ziyarəti ritualını icra etməsi bütün dünya insanlarının heyiqətən də marağındadır. Həcc ziyarəti, həmçinin, müsəlmanlara müqəddəs kitabda göstəriş kimi gəlib. Bir insanın öz halal qazancından Həcc ziyarətinə getmək üçün xərclədiyi vəsait onun yaşayışına ancaq müsbət təsir göstərə bilər. Azərbaycanda insanlar Həcc ziyarətinə çox böyük maraq göstərirlər. İllər idi ki, Həcc ziyarətinə zəngin insanlar gedirdilər, yaxud da kimlərsə imkanlı şəxslər tərəfindən ora göndərilirdi. Yaxud elə insanlar olurdu ki, səhhəti Həccə getməyə imkan vermirdi, o öz yerinə başqa birisini naib olaraq göndərirdi. Eyni zamanda, gərək bu ziyarət üçün tələb olunan bütün şərtlər insanda yerində olsun. Yəni səhhəti, həyat tərzi bu ziyarətə adekvat olmalıdır. Qaldı ki, kvota məsələsinə, hər ölkənin əhalisinin sayına görə kvota nəzərdə tutulur. 10 milyonluq əhalisi olan ölkə üçün 10 min, 70-80 milyon nəfər əhalisi olan ölkə üçün kütləvi ibadət nəzərdə tutulub. Ziyarət Qurban bayramında olduğu üçün ildə bir dəfə kütləvi xarakter alır. İldən-ilə Azərbaycan üçün Həcc ziyarəti üçün kvotanın azaldılmasına gəlincə, deyə bilərəm ki, ola bilsin, gələn il say bir az da az olsun. Bu da müşahidə edilə bilər. Mən bunu ilk növbədə Həcc ziyarətinin baha olması ilə əlaqələndirirəm. Bu xüsusən də devalvasiyadan sonra baş verdi. Bilirsiniz ki, Həcc ziyarəti üçün təşkil edilən turpaket xarici valyuta ilədir. Həcc ziyarətinə gedənlərin azalmasını biz, eyni zamanda, insanların iqtisadi durumu ilə də əlaqələndirə bilərik. Həcc ziyarəti missiyasının ödənişlərinin xüsusilə ABŞ dolları ilə olması da insanların qarşısını kəsir. Onlara bundan əlavə cibxərcliyi də lazım olur. Bu xərcləri üst-üstə gələndə xeyli vəsait edir. Bir insanın Həcc ziyarətinə getməsi üçün orta hesabla 10 min manata yaxın vəsait lazımdır. Bu da çox böyük məbləğdir. Yəni səfər böyük xərclər tələb edir".

***İradə SARIYEVA***

# Beynəlxalq təşkilatın Azərbaycanda uşaq məsələləri barədə tam qeyri-real hesabatı...

**Uşaqların hüquqlarını müdafiə edən beynəlxalq "Save the Children" xeyriyyə təşkilatı illik hesabatını və qlobal indeksini açıqlayıb. Belə ki, "Uşaqlığın sonu" adlı hesabat uşaqların üzləşdiyi ölüm, aclıq təhlükəsi, təhsil almağın çətinliyi, erkən nikah, ana olmaq, işləməyə məcbur edilmək və bu kimi digər çətinliklərlə bağlı məlumatlar əsasında hazırlanıb.**



*"Azərbaycanda pambıq istehsalı kütləvi şəkildə olmadığı halda, pambıq tarlalarında uşaq əməyinin istismarını göstəriblər"*

## **Kəmalə Ağazadə:** *"Hesabatda ölkəmizdə uşaqların vəziyyəti ilə bağlı səslənən fikirlər qərəzlidir"*

Məlum olub ki, 2000-ci ildən bu yana 173 ölkədə uşaqların ümumi vəziyyəti yaxşılaşsa da, hələ də yaşı 18-dən aşağı olan hər 4 nəfərdən 1-i uşaqlıq xoşbəxtliyini yaşaya bilmir. Bu isə 545 milyon uşaq deməkdir. Hesabata görə, 2000-2019-cu illər ərzində təxminən 31 milyon uşaq yaşadığı yeri tərk etməli olub, 420 milyon uşaq isə münaqişə zonalarında yaşayır.

"Save the Children" hesabatla yanaşı, indeks də dərc edib. 176 ölkədən ibarət bu indeks cədvəlində ölkələr uşaqların vəziyyətinə görə sıralanıb. Təşkilatın indeksində ən pis göstəricələrə malik ölkələr Afrika qitəsindədir. Bunlar Cənubi Sudan, Mali, Çad, Niger və Mərkəzi Afrika Respublikasıdır. Sinqapur, İsveç, Finlandiya, Norveç və Sloveniya isə uşaqların yaşaya biləcəyi ən yaxşı 5 ölkə kimi göstərilib.

Cənubi Qafqaz ölkələri uşaqların qismən uşaqlıqdan məhrum olunduğu ölkələrin kateqoriyasındadır. Qəribədir ki, Azərbaycan Qafqazda uşaqların yaşayış səviyyəsinə görə ən geridə qalan ölkə hesab olunur. İndeksdə Cənubi Qafqaz üzrə ən pis göstərici 89-cu yerdə olan Azərbaycandadır. Ancaq digər Cənubi Qafqaz ölkələri olan Gürcüstan 73-cü, Ermənistan isə 61-ci yerdədir.

Cədvəldə Azərbaycandan sonrakı yerlərdə yalnız iki keçmiş sovet respublikası var. Tacikistan 90, Qırğızıstan isə 94-cü pillədə qərarlaşıb. Cədvəldə ABŞ 36-cı, Rusiya isə 38-ci yerdədir.

Hesabatdan belə məlum olur ki, Azərbaycanla bağlı bir sıra təhrifedici məqamlara yol verilib. Məsələ ondadır ki, Cənubi Qafqazda iqtisadi baxımdan ən öndə gedən ölkə Azərbaycandır. Azərbaycanda uşaqların vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra sosial-iqtisadi işlər görülüb və görülür. Ən başlıcası, bunlar kompleks xarakterlidir. Təkcə 2017-ci ildə 5 milyon nəfər pulsuz müayinədən keçib. Bunların içində uşaqlar böyük çəkiyə malikdir.

O baxımdan, ekspertlər hesabatı necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadənin sözlərinə görə, hesabatda ölkəmizdə uşaqların vəziyyəti ilə bağlı səslənən fikirlər qərəzlidir:** "Onların hansı mənbələrə əsasən belə bir hesabatla çıxış etməsi aydın deyil. Həmçinin, dövlət qurumlarının məlumatlarından nə dərəcədə istifadə etdikləri də məlum deyil. Sözügedən təşkilat və digər bu kimi qurumlar Azərbaycanla bağlı çox vaxt qərəzli mövqe tuturlar. Dəfələrlə olub ki, insan alveri mövzusunda hesabatlar hazırlayanda yanlışlığa yol veriblər. Məsələn, Azərbaycanda pambıq istehsalı kütləvi şəkildə olmadığı halda, pambıq tarlalarında uşaq əməyinin istismarını göstəriblər. Halbuki, bununla bağlı faktlar olmayıb. Uşaqların seks turizmə cəlb olunması ilə bağlı yazılar olub, amma bunu təsdiq edən faktlar ortada olmayıb. Hesab edirəm ki, onların məqsədi Azərbaycanı qaralamaqdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında sosial sifarişlərlə bağlı tenderlər elan olunur. Yetərincə regionlarda, böyük şəhərlərdə bununla bağlı mərkəzlər fəaliyyət göstərir. Həmin mərkəzlər həssas qruplara daxil olan uşaqların küçəyə düşməməsi, problemlər yaşamaması və zorakılığa məruz qalmaması üçün fəaliyyət göstərirlər. Ona görə də "Save the Children" təşkilatının uşaqlarla bağlı hesabatı doğru deyil".

***Vidadi ORDAHALLI***

# Bakıda oğlan uşaqlarının getdikcə qəribələşən geyimi - allı-güllü paltarlar, corabsız ayaqqabı...

**Cəmiyyətimizdə peyda olan yeni geyim dəblərinin bir qismi bizə heç də müsbət şeylər vəd etmir. Son 1-2 ildə Azərbaycanda gənc oğlanların geyim tərzi ciddi şəkildə dəyişməyə başlayıb. Bu xüsusən də özünü paytaxtda daha qabarıq şəkildə büruzə verir.**



*"Təəssüf edirəm ki, bizim gənclərin xeyli hissəsi bu cür zövqsüz geyimlərdən istifadə edir"*

## **Könül Vəlibəyova:** *"Mənə elə gəlir ki, bu cür gənclərin zövqləri tam formalaşmadığı üçün, onlar geyim baxımından təsir altına düşürlər"*

Diqqətçəkən geyim tərzlərindən biri oğlan uşaqlarının, xüsusən də ali məktəb tələbələrinin allı-güllü köynəklər, pencəklər geyinməsidir. Gənc oğlanlar üzərində iri və müxtəlif rəngli güllərə olan köynəklər, koftalar geyməyə üstünlük verirlər. Belə geyim nümunələri hazırda paytaxt mağazalarında kütləvi olaraq satılır.

Oğlanların üzəri güllü köynəklər, pencəklər geyməsinin geniş miqyas alması həqiqətən də narahatlıq doğurur. Vaxtilə qızların, qadınların üzərində "şapan-şapan" gülləri olan donlar, kofta və ətəklər geyinməsi dəbdə idisə, hazırda xanımlar bu tip geyim tərzinə elə də üstünlük vermir, onlar əsasən sadə geyimlərə meyl göstərirlər. Oğlanlar isə, əksinə, sadə geyimlərdən sürətlə uzaqlaşaraq güllü libaslara maraq göstərirlər. Bundan əlavə, bu gün oğlanlar arasında ayaqqabını corabsız geyinmək də dəbə minib. Demək olar ki, gənc oğlanların böyük əksəriyyəti ayaqqabı geyərkən corabdan istifadə etmir.

Oğlan uşaqlarının gündən-günə dəyişən geyim tərzi nə ilə bağlıdır? Onlar hansı səbəbdən güllü geyimlərə üstünlük verirlər?

**Bakı Milli Geyim Evinin rəhbəri Könül Vəlibəyova bizimlə söhbətində bildirdi ki, son dövrlər gənc oğlanların geyim tərzi həqiqətən də dəyişib.** O hesab edir ki, indiki gənclər özlərinə yeni geyim tərzi seçməklə fərqlənmək məqsədi güdürlər. "Zövqlər müxtəlifdir. Müasir gənclər tamamilə fərqlidirlər, onlarla bizim düşüncə tərzimiz, zövqümüz üst-üstə düşmür. Bütün bunların hamısı nədən irəli gəlir? Bu, gənclərimizin təhsili və dünyagörüşü ilə bağlıdır. Səhnə geyimi ilə gündəlik geyim fərqli olmalıdır. Gənclərin corab geyinməməyinə gəlincə, idman ayaqqabısının içinə qısa corab geyinmək olar. Klassik ayaqqabıların içinə isə bizim gənclər qısa corab geyinir. Bu, bütün dünyada dəbdədir. Sadəcə olaraq, onlar geyindiklərini bir-birinə uyğunlaşdıra bilmirlər. Geyimlər bir-birini tamamlamadığına görə də geyimləri şit görsənir. Rəngli köynəklərə gəlincə, bilirsiniz ki, keçən əsrin 80-ci illərində də güllü, bəzəkli-düzəkli köynəklər dəbdə olub. Azərbaycanda həmin dövrdə o cür köynəklər geyiniblər. Dəb zamanla dəyişir, dəbə dönüş olur. Dəb elə bir anlayışdır ki, onun qarşısı alına bilmir və bu, cəmiyyətin fikri ilə yaranmır. Bu bir axındır, biz də düşürük. Bu, hansısa ölkədən, cəmiyyətdən bizə gələn axındır. Xaricdə bu stildə geyənlər var. Amma təəssüf edirəm ki, bizim gənclərin xeyli hissəsi bu cür geyimlərdən istifadə edir. Mənə elə gəlir ki, bu cür gənclərin zövqləri tam formalaşmadığı üçün, onlar geyim baxımından təsir altına düşürlər. Düzdür, bizim zövqlə geyinən gənclərimiz də çoxdur. Güllü geyimlər geyinən gənc oğlanların geyim tərzini həssaslıqla təhlil etməliyik. Çünki bəzən tənqidin özü bir reklamdır. Yəni biz onları tənqid edirik, amma bundan nəticə çıxarmaq əvəzinə, bəzən ondan daha çox yararlanırlar. Biz onları tənqid ediriksə, onlar bu cür geyimləri daha çox geyinə bilərlər. İndiki gənclərdə də belə bir yanaşma var ki, biz daha yaxşı bilirik, özümüz sizdən daha anlayışlı və dünyagörüşlüyük. Bu baxımdan, bizim tənqidimiz onlarda yanlış fikir yarada bilir. Son 6 ay ərzində dünyanın təxminən 20 ölkəsində olmuşam, Avropa ölkələrinə getmişəm. Burada gənclərdə zövqsüz tərzlə rastlaşmamışam. Bizim gənclərin bəzilərinin geyimlərində Şərq üslubu ilə Avropa üslubunu yanlış qarışdırma var. Mənə elə gəlir ki, səhnədə olan gənclərə baxaraq geyim tərzlərini uyğunlaşdıra bilməzlər. Çünki səhnə geyimi ilə adi həyatdakı geyim tərzi fərqlidir".

*"Güllü geyimlər geyinən gənc oğlanların geyim tərzini həssaslıqla təhlil etməliyik"*

**K.Vəlibəyova hesab edir ki, bu məsələyə həssas yanaşmaq lazımdır. Gənclərə geyimlərlə bağlı məsləhətlər verməyin vacib olduğunu deyən K.Vəlibəyovanın sözlərinə görə, zaman hər şeyi öz yoluna qoyacaq.**

***İradə SARIYEVA***

**Redaksiyamıza şəhid atası Xuduş Ağdamlı tərəfindən Şağan qəsəbəsində yerləşən "Müharibə əlilləri üçün müalicə pansionatı"nın kollektivi tərəfindən ona göstərilən yüksək qayğı ilə əlaqədar təşəkkür məktubu daxil olub. Şəhid atası yazır ki, hər birimiz son illər respublikamızda həyata keçirilən abadlıq-quruculuq işlərinin şahidi oluruq.**

# 83 yaşlı şəhid atası "Müharibə əlilləri üçün müalicə pansionatı"ndan nələr danışır?




*"Müalicə aldığım pansionatdan xoş əhval-ruhiyyə ilə ayrıldım"*

***Xuduş Ağdamlı:** "Dövlətimizə minnətdaram ki, vətəndaşlarımızın şəfa tapması üçün belə bir nümunəvi şərait yaradıblar"*

Bakıda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə, Naftalanda, Yevlaxda və digər şəhərlərimizdə bu istiqamətdə görülən işlərin əhalinin inkişafına müsbət təsir göstərdiyini yazan X.Ağdamlı bu inkişafın ölkənin səhiyyə sistemində də özünü göstərdiyini qeyd edir. "Müalicə insan sağlamlığı üçün çox vacib amildir. Son illər ölkəmizdə bu sahəyə xüsusi diqqət yetirilir. Mən də respublikamızda tanınan bir sağlamlıq ocağından söhbət açmaq istəyirəm. Şağan qəsəbəsində yerləşən "Müharibə əlilləri üçün müalicə pansionatı"nı deyirəm. Ulu öndərimiz Heydər Əliyevin göstərişi əsasında inşa edilən pansionat 15 ildir fəaliyyət göstərir. Paytaxtımızdan çox uzaq olmayan bu pansionatda müalicə alanlar hər zaman bu səhiyyə ocağı haqqında müsbət fikirlər bildirirlər. 2017-ci ildə 4187, 2018-ci ildə 4508, 2019-cu ilin dördüncü ayında 1284 nəfər əlilliyi olan şəxs burada müalicə alıb. Vaxtaşırı olaraq Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşlarının bu səhiyyə ocağına baş çəkməsi təqdirəlayiq haldır".

X.Ağdamlı qeyd edir ki, pansionatda olan müsbət dəyişikliklər nəzərəçarpacaq dərəcədə özünü büruzə verir. O yazır ki, burada Böyük Vətən Müharibəsi, Çernobl, Əfqanıstan və Qarabağ əlilləri, veteranları, fiziki qüsurlu insanlar müalicə olunur, şəfa tapır və müəssisənin kollektivindən razılıq edirlər. O qeyd edir ki, pansionatın binasında köhnə liftlərin müasir elektron liftlərlə əvəzlənməsi, daxildəki dəyişikliklər, isti və soyuq suyun fasiləsiz verilməsi olduqca müsbət haldır. "Müalicə aldığım günlərdə hər həftə pansionatın direktoru, baş həkimi Pərvanə Hacıyevanın işgüzarlığının da şahidi oldum. Onun xəstələrlə fərdi söhbəti, onlara göstərdiyi diqqət və qayğı, yeməkxanaya tez-tez baş çəkməsi, işçilərlə mehriban münasibəti onun səriştəli və işgüzar bir səhiyyə işçisi olmasını göstərir. Müalicə müddətində xəstələrdən "Allah bu pansionatı tikdirənə rəhmət eləsin", "Sağ olsun Prezidentimiz və Mehriban Əliyeva", "Var olsun xalqın qədirbilən oğulları" kimi dualar eşidirəm. Onu da deyim ki, bura öz hesabına ərzaq gətirən xeyirxah oğullar da var. Onlara da təşəkkürümü bildirirəm. Həkimlərdən Məlahət Əliyeva, Rəna Əsgərova, tibb bacıları Samirə Məmmədova, Həqiqət Məmmədova, Səbinə Bayramova, fizioterapevt Vəfa Məmmədəliyeva, "Buruldan" və "Mirvari" vannalarında xidmət göstərən Vüsalə Xanbudaqova, masaj otağında Gülarə Xələfli, Zümrüd Rzayeva, iynə otağında Cəvahir Qasımova, kardioloq "EKQ" Səadət Ələkbərova, idman zalında Mədinə Məmmədova, Arzu Məmmədova, qəbulda Kəmalə Ağasıyeva, inzibatçı Zülfiyyə Bayramova, Zülfiyyə Babayeva öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Bundan başqa, bu səhiyyə ocağında çalışan Fəlakət Əliyeva, Vəsilə Abdıyeva, Məlahət Atayeva, Türbət Məmmədbəyova və başqaları da xəstələrə qayğıkeşliklə yanaşırlar.

"Müharibə əlilləri üçün müalicə pansionatı"nda müalicə alan Naxçıvan, Gədəbəy, Tərtər, Ağdam, İmişli, Bərdə, Masallı, Ucar, Ağdaş və s. regionlardan olan xəstələrlə həmsöhbət oldum. Ağdaşlı II qrup əlil Əvəz Mütəllibov, Nəsib Atakişiyev, Gəncədən Müzəffər Əhmədov, Bakıdan Mehman Şirinov, Tovuzdan I qrup Qarabağ əlili Ramiz Məmmədov müalicədən və pansionatdakı yüksək xidmətdən razılıqlarını bildirdilər.

Mən özüm şəhid atası, 83 yaşlı ahıl, məcburi köçkün, əmək veteranı kimi müalicə aldığım pansionatdan xoş əhval-ruhiyyə ilə ayrıldım. Dövlətimizə minnətdaram ki, vətəndaşlarımızın şəfa tapması üçün belə bir nümunəvi şərait yaradıb".

***Namiq QULİYEV***

---

**Final oyunu bitdi. Ancaq bu oyunun təəssüratları, bilirəm ki, nə futbol azarkeşlərini, nə də bizləri uzun müddət tərk etməyəcək. "Çelsi" qalibdir. Elə biz də. Bakı hər zaman olduğu kimi, bu dəfə də söz-söhbətlərə, qarayaxmalara öz nümunəsi, işi ilə cavab verdi.**

# Futbol finalı günü Bakıda dönərçi ilə bir ingilisin "bayraqlaşması"...



## *Sevənlərin sayı artır*

İngiltərənin özündə çılğın azarkeşlərin nələr etdiyini yaxşı bilirsiniz. Bakıda da o çılğınlıq oldu, amma "fəlakət" səviyyəsində yox.

Qonaqları güllə qarşılayıb gülə-gülə də yola saldıq. Azərbaycana gəlməkdən məmnun idilər. Həm də mxitaryanların "oyunu" iflasa uğramışdı. Onun adı yazılmış köynəyi geyinib Bakıda vargəl edib hay-küy salmaq istəyənlər isə o köynəklərin üstündən hələ bir neçə il qara geyinəcəklər.

İdman barış siyasətidir və Azərbaycan bu siyasətə elə müharibə meydanında da sadiqdir. Bizim heç bir dövlətin torpağında gözümüz yoxdur...

Bütün sülh platformaları üçün meydanımız genişdir. Gücləndikcə isə top bizdədir qətiyyətimizi və onu əldən verməmək istəyimizi hər kəs görür, elə Mxitaryanın timsalında Ermənistana xal qazandırmaq istəyənlər də.

Avropa Parlamenti yetkililərindən birinin müsahibələrində: "Mən özümü Azərbaycanda daha təhlükəsiz hiss edirəm" deməsi, eləcə də final oyununu izləməyə, işıqlandırmağa gələn media nümayəndələrinin fikirləri Azərbaycanın qələbəsidir. Gələnlər həm də əsl Azərbaycan gerçəyini, Azərbaycan nümunəsini gördülər. Qonağa diqqətimiz, qonaqpərvərliyimiz, "tikəmizin düşməni" olduğumuz da, bu xasiyyətimiz də dəyişməyib.

Azərbaycan sabitlik adasıdır. Azərbaycanlılar kimi vətənimizə gələn hər kəsin təhlükəsizliyi, toxunulmazlığı, hüquqlarının qorunması prioritetdir. Turistlər də bunu yaxşı bilirlər. Azarkeşlər də gəldilər, gördülər və bir daha buna əmin oldular.

Azərbaycan Polisi bu final oyununda tarix yazdı, hər kəsin diqqət mərkəzində oldu. Əcnəbi azarkeşlər, hansılar ki, pulunu, qiymətli əşyasını, oyunda iştirak etmək üçün aldığı bileti itirmişdi, polisimizin sayəsində sıxıntıdan qurtuldular.

Və dünən şahidi olduğum bir mənzərə isə həm qürurverici idi, həm də ürəyi olanlar kövrələrdi də...

**"28 May" metrostansiyasının yaxınlığında dönər almaq istəyən əcnəbiyə, daha doğrusu, ingilisə: "Qonağım olun, bunu pulsuz verirəm",-deyən həmvətənimin səmimiyyəti qonağı təəccübləndirdi, məni duyğulandırdı. İngilis azarkeş ona "Çelsi"nin bayrağını bağışladı. Dönərçi də borclu qalmadı, piştaxtanın bir başında qoyduğu Azərbaycan bayrağını öpüb, alnına qoyub qonağa verdi...**

***Hafiz TƏMİROV***
***polis mayoru***

№ 97 (3995) ■ Qiyməti: 50 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

1-3 İYUN 2019-cu il



## "Nar" eşitmə məhdudiyyətli insanların peşəyə yiyələnməsinə dəstək olur

**"Nar"ın dəstəyilə eşitmə məhdudiyyətli insanların müxtəlif ixtisaslara yiyələnməsi və onların işlə təmin olunması məqsədilə keçirilən "Təlim məktəbi" layihəsi davam edir.**

Artıq layihənin 1-ci mərhələsi başa çatıb. 15 nəfərdən ibarət qrup şirniyyat ustası peşəsinin incəliklərini öyrənib. Qeyd edək ki, "Nar"ın "Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşdırdığı layihə 3 mərhələdən ibarətdir. Layihə çərçivəsində üç qrupdan ibarət olan vətəndaşlar üç aylıq peşə kurslarında təlim keçəcəklər. Qarşıdakı 2 aylıq peşə kurslarında isə iştirakçılar aşpaz və motorçu ixtisaslarına yiyələnəcəklər. "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyətli insanların təhsil almasından sonra işlə təmin olunmasına da yardım edəcək. Layihə təcrübəli mütəxəssislər tərəfindən aparılacaq.

Qeyd edək ki, "Nar" tərəfindən təşkil edilən "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyəti olan insanların yeni bacarıqlar əldə etməklə cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə keçirilir. Layihə, eyni zamanda, eşitmə məhdudiyyətli insanlara həm psixoloji, həm də qanunvericilik sahəsində qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlməyə kömək edəcək. Peşə təlimi ilkin olaraq paytaxt Bakıda start götürüb. Gələcəkdə isə bölgələrdə də "Təlim məktəbi" layihəsinin davam etdirilməsi planlaşdırılır.

Qeyd edək ki, "Nar" 4 ilə yaxındır eşitmə məhdudiyyətli insanlar üçün bu cür təlimlər təşkil etməklə, onların müxtəlif peşələrə yiyələnməsinə və iş bacarıqlarının artmasına töhfə verir. Fiziki məhdudiyyətli insanlara dəstək və onların cəmiyyətə inteqrasiya edilməsi "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

**Elan**

Nemətli Əli Mübariz oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Hüseynov Yusif Əlismayıl oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Bolludərə kənd sakini Məmmədov Qəhrəman Mirhüseyn oğlunun adına verilmiş JN0056 seriyalı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

## Məşhur milyarderlə nahar yeməyinin qiyməti - 3,5 milyon dollar

**Hər il keçirilən xeyriyyə hərracı hələ yekunlaşmamış məşhur amerikalı sahibkar və milyarder-investor Uorren Baffetlə naharın qiyməti 3,5 milyon dollara çataraq yeni rekord müəyyən edib.**



"AZƏRTAC" bildirir ki, naharın ilkin qiyməti 25 min dollar təşkil edirdi. Hazırda "eBay" online platformasında keçirilən hərracda dörd nəfər iştirak edir. Hərracın yekun nəticəsi mayın 31-də axşam saatlarında məlum olacaq. Milyarderlə naharın öncəki rekordu 2016-cı ildə müəyyən edilib (3,46 milyon dollar). Milyarder Uorren Baffetlə nahar etmək imkanının satışa çıxarıldığı hərrac 2000-ci ildən bəri hər il keçirilir. Hərrac zamanı əldə edilən gəlir San-Fransiskoda kasıblara və evsizlərə yardım edən "Glide Foundation" təşkilatına daxil olur. Hərracın qalibi nahara özü ilə daha yeddi nəfər gətirə bilər. Nahar adətən, Nyu-Yorkdakı məşhur "Smith & Wollensky" restoranında baş tutur.

## Sürətli yeriyən adamlar daha çox ömür sürür

**Amerikalı alimlərin sözlərinə görə, çəkisindən asılı olmayaraq, sürətlə yeriyən insanlar daha çox yaşayır. "Publika.az" xəbər verir ki, ABŞ tədqiqatçıları 10 il ərzində 474 919 insanın səhhəti haqqında məlumatları öyrənib.**



Onlar iştirakçıların yerimə tempi və bədən quruluşu haqqında məlumatları toplayıb. Məlum olub ki, sürətlə yeriyən adamlar 86 ildən çox yaşayıb. Asta yeriyən insanlar isə 64 yaşa qədər ömür sürüb. Ən maraqlısı odur ki, bu, bədən quruluşu və piylənmənin səviyyəsindən asılı deyil. Tədqiqatın müəllifi Tom Yeyts bildirib ki, əvvəllər insanlar ömrün uzunluğunu çəki ilə bağlayırdı. Amma hər şey fiziki hazırlıqdan asılıdır: "Nəticələrin möhkəmliyinə təsir edən bir çox amillərin mövcud olmasına baxmayaraq, fiziki məşqləri artırmaq öz sağlamlığınız üçün edə bildiyiniz ən yaxşı işdir". Tədqiqat yalnız müşahidələrə söykənir və yerimə ilə uzunömürlülük arasında səbəb-nəticə əlaqəsini göstərmir.

## Hidrogen yanacaqla işləyəcək ilk uçan avtomobil nümayiş olundu

**ABŞ-ın Kaliforniya ştatında hidrogen yanacaqla işləyəcək ilk uçan avtomobil nümayiş olunub.**

"AZƏRTAC" bildirir ki, "Skai" adlandırılan altı mühərrikli avtomobil bir dəfəyə 500 kilometr məsafə qət edə və beş sərnişin daşıya biləcək. Hidrogen yanacaq sayəsində ətraf mühitə heç bir zərər dəymәyəcək. Avtomobilin pərləri səsin mümkün qədər azaldılması üçün xüsusi olaraq hazırlanıb. Altı mühərrikli avtomobilin təhlükəsizliyi üçün bütün incəliklər nəzərə alınıb.

Mühərriklərin ikisi sıradan çıxsa belə, "Skai" uçmağa davam edəcək. Hidrogen yanacaqla işləyəcək uçan avtomobilin ilk sınaqlarının yaxın günlərdə başlaması gözlənilir.





**Qoç** - Enerji tonusunuza diqqət verin. Təhlükəli gərginliyin yarandığını hiss etdiyniz məkanda ehtiyatlı olun. Xroniki problem ciddiləşə bilər. Problemali situasiyanı sürətləndirən və dərinləşdirən amillər sizin üçün siqnal olmalıdır.



**Buğa** - İstənilən, hətta ən kiçik işlərdə fayda və mənfəət arayın. Hadisələri tələsdirməyin. Etdiyiniz seçimi dərhal açıqlamayın. Ev işləri və ailə tədbirləri üçün əlverişli zamandır.



**Əkizlər** - Təhlükəsizliyinizə və işinizin səlis yerinə yetirilməsinə fikir verin. Hadisələrin bir qismini nəzarətdə saxlayın. Məntiqli olun, soyuqqanlı və təmkinli davranın. Emosiyalara uymayın, təxribatlı təkliflərə aldanmayın.



**Xərçəng** - Sizi yoran və ya usandıran məsələlər ailədə gərginlik yarada bilər. Evə əlavə iş aparmayın. Başqasının problemlərinin həlli ilə məşğul olmaq istəsəniz, öz işinizi unutmayın.



**Şir** - Çətin və gərgin situasiyalarda ruhdan düşməyin, geriləməyin. Kimsə həmin situasiyanı daha da ağırlaşdıracaq və siz cari işləri bir kənara qoyaraq təcili işlə məşğul olmaq məcburiyyətində qalacaqsınız.



**Qız** - İşlərin rəvan getməsi günün əlverişli olmasına dəlalət etmir. Problemin asan həll olunduğu və ya gözlədiyiniz məkanda uğur yoxdur. Yanlış diaqnozlar və tələsik qərarlardan qorunun.



**Tərəzi** - Yaxın ətrafınıza, yaşam arealınıza diqqət yetirin. Ağıllı və fəndgir davranın, ehtiyatı əldən verməyin. Qüvvələrinizi bərpa etməyə çalışın. Bunun üçün təmrinləri və ya prosedurları müəyyənləşdirin.



**Əqrəb** - Birmənalı olmayan, çətin, mürəkkəb gündür. Bir qədər təkbaşına işləyin, fikirlərinizi cari qayğılardan "təmizləyin" və dəqiq bəlirlənməmiş potensialın hiss olunduğu mövzuları araşdırın.



**Oxatan** - Qarışıq və laübəli gündür. Rutin işlərlə aramla məşğul olun. Süni təkan işin ziyanına ola bilər. Cari işlərin çərçivəsində qalın. Qəflətən yaranan situasiyalara dərhal reaksiya verin.



**Oğlaq** - Yaşam nə qədər çətinləşirsə, fəaliyyətiniz bir o qədər effektiv olmalıdır. Kreativ nümayiş etdirərək iki nəfərin əvəzinə işləyə bilərsiniz. Lakin belədə çox tez yorulacaqsınız. Fəal işdən sonra bir qədər istirahətə dəyər.



**Dolça** - Perspektivdə başlanacaq layihələr və ya işlərlə bağlı gərgin mübahisələrə qatılmayın, enerjinizi mənasız işlərə sərf etməyin. Təxirəsalınmaz müdaxilə tələb edən işlərdə aktiv olun.



**Balıqlar** - Çoxdan bəri yığılıb qalmış iddialar və tələblər bu gün aşkarlana bilər. Ünsiyyətdə normal inetsivliyi qoruyaraq səmimi və gülərüz qalmaq çətindir. İşinizi yerinə yetirin, tapşırıqları və öhdəlikləri unutmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bayram sevincini "Azercell" ilə yaşayın!

*"Azercell"dən Ramazan bayramı münasibətilə yeni kampaniya*

**Sərfəli tariflərlə ünsiyyəti daha da əlçatan edən "Azercell" Ramazan bayramı ərəfəsində müştərilərini yeni kampaniya ilə sevindirir.**

Belə ki, 31.05.2019 - 06.06.2019 tarixləri ərzində fakturasız xətt abunəçiləri 5005 qısa nömrəsinə BAYRAM açar sözünü göndərib, balansına 5 AZN və daha çox vəsait yükləyərək, eyni məbləğdə bonus qazanacaq. Ödəniş üsulundan asılı olmayaraq, 5AZN/10AZN/25AZN/50AZN/100AZN dəyərində yüklənişlərə təqdim edilən bonus şəbəkədaxili zənglər üçün nəzərdə tutulub.

Ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/campaigns/monthly/ramadan2019/ səhifəsinə daxil olun. Bu bayramda "Azercell" ilə öz doğmalarınıza bir zəng qədər yaxın olun! Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.